# Azərbaycan Respublikasının
# Əqli Mülkiyyət Agentliyinin 2021-ci ildə
# görülmüş işlər barədə ətraflı

# HESABATI

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılan tarixi qələbədən, torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümuzun bərpasından sonra ölkəmiz keyfiyyətcə yeni olan strateji mərhələyə daxil olmuşdur. Yeni strateji dövrdə dövlətimizin hədəflədiyi məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" 2 fevral 2021-ci il tarixli, 2469 nömrəli Sərəncam imzalamışdır. Həmin sənəddən irəli gələn reallaşdırılmalı olan "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" və "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" istiqamətləri milli prioritetlər sırasına daxil edilmişdir. Əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr də ölkənin innovasiya siyasəti ilə müəyyən edilir.

Əqli mülkiyyət kateqoriyasının müasir təsəvvürü onun ikili təbiətinə əsaslanaraq, bir tərəfdən qeyri-maddi aktivdir-hüquqlardır, digər tərəfdən isə qorunma bu obyektlərə obyektiv formada olmasından irəli gələn maddi obyektdir. Bu cür yanaşma bir tərəfdən əqli mülkiyyət institutunun sinergetikasını, emergentliyini nəzərə alır, hüquq (yurisprudensiya) ilə yanaşı, onun iqtisadiyyatına və sosiologiyasına diqqət yetirir. Bununla yanaşı, konseptual yeniliklər əqli mülkiyyət ekosisteminin institusional dəyişikliklərini gündəmə gətirir.

Dövlət başçısının uzaqgörən siyasətindən irəli gələn institusional islahatlar nəticəsində yaradılan Əqli Mülkiyyət Agentliyi həm müəlliflik hüquqları və əlaqəli hüquqlar, həm də sənaye mülkiyyəti (ixtiralar, faydalı modellər, sənaye nümunələri və əmtəə nişanları) sahələrini əhatə edərək, özünəməxsus unikal idarəetmə modelini aktuallaşdıran, Respublika Elmi-Texniki Kitabxanasını və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzini əlaqələndirən strukturdur. Agentliyin yaradılması və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhfəsini verməkdədir. Dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxs eyni zamanda fəaliyyətindən əldə olunmuş vəsaitlər hesabına saxlanma və digər xərclərinin optimallaşdırılmış üsullarla idarə olunmasına malikdir. Beləliklə, əqli mülkiyyət sahəsində aparılan konseptual və institusional islahatlar əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğundur, sistemli xarakter daşıyır və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir.

Hesabat dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində görülən davamlı tədbirlər nəticəsində bütün sahələrdə, o cümlədən əqli mülkiyyət sahəsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Əqli Mülkiyyət Agentliyi tərəfindən reallaşdırılan düşünülmüş ardıcıl tədbirlər nəticəsi olaraq əqli mülkiyyət insitutunun bütövlükdə təkmilləşdirilməsi və müasir çağırışlara cavab vermə imkanları genişlənmiş, yaradıcı şəxslərin – müəlliflərin, ixtiraçıların əqli mülkiyyət hüquqlarının qorunmasının daha etibarlı təmin olunma mexanizmləri təkmilləşdirilmişdir. Bu da cəmiyyətdə tərəqqiyə, yaradıcılıq ab-havasının formalaşmasına, elmi-texniki biliklərin dəyərinin artmasına və tətbiqinə, əqli mülkiyyətin qorunma səviyyəsinin iqtisadiyyata yatırılan investisiyaların keyfiyyət və kəmiyyəti ilə əlaqələndirilməsinə, ümumən, iqtisadi yüksəlişə təkan verən amil kimi qəbul edilir.

Agentlik koronavirus pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunmasının ölkəmizdə ali məqsəd kimi qəbul edilməsini, koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə müəyyən edilmiş xüsusi karantin rejimi nəzərə alınmaqla, bir çox xidmətləri onlayn rejimdə göstərmişdir. O cümlədən əqli mülkiyyət hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edən müəlliflik hüququ və əlaqəli hüquqların obyektlərinin qeydiyyatı ilə bağlı ərizələrin qəbulu və digər xidmətlər Elektron Hökumət portalı, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulu isə əvvəlki hesabat ilində istifadəyə verilmiş və Hökumət Ödəniş Portalına inteqrasiya olunmuş "Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) sistemi və elektron poçt vasitəsilə həyata keçirilmişdir. PƏNAH sistemi vasitəsilə sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində tətbiq edilən "vahid pəncərə" prinsipi daha da təkmilləşdirilmiş, açıqlıq və şəffaflığı təmin edən bu sistem göstərilən dövlət xidmətlərinin səviyyəsini yüksəltmişdir.

Bununla yanaşı, əqli mülkiyyət obyektləri, o cümlədən sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində fəaliyyətin səmərəliliyinin və göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə yaradılmış "Çağrı mərkəzi"nin fəaliyyəti sistemin ixtira və patent fəallığının artmasına müsbət təsirini göstərmiş, sənaye mülkiyyəti məsələləri ilə bağlı 17115-dən artıq telefon zəngi bu mərkəz vasitəsilə cavablandırılmışdır

İl ərzində əqli mülkiyyət hüquqlarının qorunması və təminatı sahəsində normativ-hüquqi və informasiya bazasının təkmilləşdirilməsi üzrə layihələrin hazırlanması, mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq əqli mülkiyyət obyektlərinin dövlət qeydiyyatı və reyestrinin aparılması, müvafiq mühafizə sənədlərinin verilməsi və qüvvədə saxlanılması, əqli mülkiyyət hüquqlarının digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatı ilə bağlı tədbirlər həyata keçirilmişdir. Rəqəmli hüquqların idarə edilməsi, mədəni irsin milli elektron məlumat bazasının yaradılması və digər xidmətlərin göstərilməsi üzrə tədbirlər davam etdirilmişdir.

Agentlikdə kargüzarlığın aparılması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təqdim olunan SESDA sisteminə keçid tam təmin edilmişdir.

Əqli mülkiyyət sisteminin avtomatlaşdırılması layihəsi üzrə tətbiq olunan IPOA (Intellectual Property of Azerbaijan) sistemindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının təqdim etdiyi IPAS (Industrial Property Automation System) sisteminə əmtəə nişanları üzrə miqrasiya prosesi başa çatdırılmışdır. IPAS sistemi 50-yə qədər ölkədə əqli mülkiyyətin avtomatlaşdırılmasında kompleks proqram kimi qəbul olunmuşdur və hazırda istifadə olunur. Bu sistemin production versiyasının işə salınması və sonradan real rejimdə fəaliyyətə başlaması üçün IPAS sistem tərtibatçılarının Azərbaycana gəlməsi nəzərdə tutulmuşdur. Lakin pandemiya ilə əlaqədar bu səfər baş tutmadığı üçün hazırda işlər online şəkildə davam etdirilir.

Universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində əqli mülkiyyət ofislərinin yaradılması və mövcud ofislərin texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzlərinə çevrilməsi istiqamətlərində tədbirlər davam etdirilmiş, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması haqqında" 2021-ci il 6 aprel tarixli Fərmanının 1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 22 aprel 2021-ci il tarixli Qərarı ilə yeni yaradılmış Mərkəzin fəaliyyətinin təşkili üzrə sənəd layihələri hazırlanıb Nazirlər Kabinetinə təqdim edilmişdir. Mərkəz elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artırılması və tətbiqi

xarakter daşıması üçün texnologiyaların transferi və əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, transferi, innovativ inkişafın, o cümlədən startap layihələrinin dəstəklənməsi, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsi və s. sahələrdə fəaliyyəti əlaqələndirəcək. Mərkəzin fəaliyyəti Agentliyin əldə etdiyi vəsait hesabına həyata keçiriləcəkdir. Bu istiqamətdə görülən tədbirlərə dəstək məqsədilə "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair Yaddaş kitabçası" (azərbaycan və rus dillərində) və "Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması" kitabçası hazırlanmışdır.

Əqli Mülkiyyət Agentliyinin 2021-ci ildəki fəaliyyətinin yekunlarına aid bu hesabatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat və idarəetmə sahələrində islahatların aparılması ilə bağlı fərman və sərəncamlarından, müvafiq Dövlət Proqramlarından, icrası Agentlik tərəfindən həyata keçirilən 7 qanundan ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Məlumat toplularının hüquqi qorunması haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanunlar) və digər müvafiq sənədlərdən irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə görülmüş işlər, əhaliyə göstərilən dövlət xidmətləri, həmin xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətlərində atılan addımlar barədə məlumatlar öz əksini tapmışdır.

**1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn əqli mülkiyyət və iqtisadi inkişafla bağlı aidiyyəti vəzifələrin icrası.** Agentlik əqli mülkiyyət sahəsində dövlət siyasətini həyata keçirən dövlət qurumu olaraq, özünün əsas məqsədini Prezident İlham Əliyevin geniş iqtisadi islahatlarının reallaşdırılmasına xidmət etməkdə görür, gələcəyə yönəlmiş strategiyasını və onun həyata keçirilməsi üçün illik fəaliyyət planını müəyyənləşdirərkən dövlət başçısının qəbul etdiyi konkret proqram və sənədləri rəhbər tutur.

Ölkəmizdə aparılan iqtisadi islahatlar çərçivəsində elmi tədqiqat nəticələri olan yeni texnologiyaların kommersiyalaşdırılması və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı"ndan, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2018-ci il tarixli 3722 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"ndan, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanından, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" 10 yanvar 2019-cu il tarixli 881 nömrəli Sərəncamından və digər sənədlərdən irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi hesabat ilində Agentliyin başlıca fəaliyyət istiqamətlərindən olmuşdur.

Emi-tədqiqat nəticələri olan yeni texnologiyaların iqtisadiyyatda tətbiqi və iqtisadi səmərəsinin artırılması, əqli fəaliyyət nəticələrinin kommersiyalaşmasının təmin

olunması, milli brendlərin təbliği və innovasiyaların cəlb edilməsi üzrə görülən işlərin dövlət başçısının islahatlar siyasətinin tələblərinə uyğunlaşdırılması üçün Agentliyin fəaliyyəti bu siyasətlə müəyyən edilən aidiyyəti vəzifələrin icrasına xidmət etməyə yönəldilmişdir. O cümlədən, “Made in Azerbaijan” brendinin təşviqi, loqotiplərin müəlliflik hüququnun obyekti kimi qeydiyyata alınması üzrə fəaliyyətlər davam etdirilmiş, mobil əlavələrin müəlliflik hüququnun obyekti kimi qeydiyyata alınması təmin edilmiş, əqli mülkiyyətə aid indikatorlar üzrə ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərinin yaxşılaşdırılması istiqamətində zəruri tədbirlər görülmüş, həmçinin “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı”nın aidiyyəti üzrə icrası ilə bağlı tapşırıqlar yerinə yetirilmiş və görülmüş işlər barədə həmin işçi qrupuna və Nazirlər Kabinetinə məlumat təqdim edilmişdir.

Hesabat dövründə yuxarıda qeyd edilən istiqamətlərdə aparılan işlərə dəstək verilməsi məqsədilə Agentliyin təşkilatçılığı ilə bir sıra tədbirlər təşkil edilmiş, Agentliyin nümayəndələri bu sahə ilə bağlı ənənəvi, onlayn və hibrid formatda keçirilmiş 30-dan artıq milli və beynəlxalq tədbirdə iştirak etmişlər.

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından, müvafiq dövlət proqramlarından irəli gələn aidiyyəti vəzifələr çərçivəsində aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

Azərbaycan Respublikası Prezidentinin 2021-ci ilin Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilməsi ilə əlaqədar 2021-ci il 5 yanvar tarixli 2408 nömrəli Sərəncamının icrası ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində 2021-ci il 5 aprel tarixində Əqli Mülkiyyət Agentliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə “Nizami Gəncəvi yaradıcılığı Azərbaycanın əqli mülkiyyətidir və bəşəriyyətin mədəni sərvətidir” mövzusunda beynəlxalq vebinar-konfrans keçirilmişdir. Vebinarda ölkəmizin dövlət orqanlarının rəsmiləri, millət vəkilləri, elm və təhsil müəssisələrinin əməkdaşları beynəlxalq təşkilatların nümayəndələri və digər şəxslər onlayn rejimdə iştirak etmişlər

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri tədbiri açaraq, dövlətimizin və dövlətçilik tariximizin şanlı səhifəsi olan Vətən müharibəsindəki parlaq Zəfərimizin davamı olaraq “Nizami Gəncəvi İli”nin elan edilməsinin hər bir azərbaycanlı üçün çox önəmli hadisəyə çevrildiyini, klassik ədəbi irsimizin görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığına ölkəmizdə göstərilən diqqətin və ardıcıl siyasətin növbəti nümunəsi olduğunu vurğulamışdır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsmail Seragəldin, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun sədri Günay Əfəndiyeva, ISESCO-nun sabiq baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının Təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Kembric Universitetinin (Böyük Britaniya) professoru Kristin van Ruymbeke və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı Direktoru Vüsal Qasımlı konfransda çıxış etmişlər. Vebinarda Agentliyin İdarə Heyətinin sədrinin “Nizami Gəncəvi yaradıcılığı Azərbaycanın əqli mülkiyyəti və bəşəriyyətin mədəni sərvətidir”, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimlinin “Nizami yaradıcılığı – qlobal mənəvi dəyər kimi” və Azərbaycan Milli Elmlər Akademiyanın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru,

dosent Zəhra Allahverdiyevanın "Azərbaycan-türk mədəniyyətinin zirvəsi Nizami Gəncəvi" mövzusunda məruzələri də dinlənilmişdir.

“2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 3 may tarixli 38 nömrəli Sərəncamının aidiyyəti üzrə icrası ilə bağlı şərabçılıq məhsulları üzrə milli brendlərin yaradılması və müvafiq qaydada qeydiyyatının təmin edilməsi hesabat ilində diqqət mərkəzində saxlanılmış, bu çərçivədə 2021-ci il ərzində şərabçılıq məhsulları üzrə 22 ədəd əmtəə nişanı yerli sahibkarların adına qeydiyyata alınmış və onlara dair Azərbaycan Respublikasının ərazisində qüvvədə olan şəhadətnamələr verilmişdir.

“Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2018-ci il 28 fevral tarixli 3722 nömrəli Sərəncamının icrası ilə bağlı əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilmiş, sənaye mülkiyyəti obyektləri kimi müvafiq Dövlət reyestlərində əvvəlki illərdə qeydiyyata alınan və Azərbaycan Respublikasının ərazisində qüvvədə olan 2 ixtira, 5 sənaye nümunəsi, 6 əmtəə nişanı, 3 coğrafi göstərici ilə yanaşı, 2021-ci ildə xalça sənətinə dair 3 əmtəə nişanı Dövlət Reyestrində qeydiyyata alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair Tədbirlər Planı”nın icrası çərçivəsində “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanının 5-ci hissəsinin icrası ilə bağlı Agentlik tərəfindən aidiyyəti tapşırıqlar yerinə yetirilmiş, o cümlədən “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Nazirlər Kabinetinin 2021-ci il 13 aprel tarixli 235s nömrəli Sərəncamının 1-ci hissəsinin icrasına dair Ədliyyə Nazirliyinə Agentlik tərəfindən 2021-ci il 5 may tarixli PHŞ/2-2-2021-144 nömrəli məktub göndərilmişdir.

Qeyd olunan Sərəncamın 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Agentlik tərəfindən hazırlanmış, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış və “Normativ-hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğun olaraq (əsaslandırma, məcburi hüquqi ekspertiza rəyi, layihəni hazırlamış şəxslərin siyahısı) 16 aprel 2021-ci il tarixli PHŞ/2/-2-2021-87 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” Nazirlər Kabinetinin Qərar layihəsi əsasında Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” 2021-ci il 22 aprel 104 nömrəli Qərarı qəbul olunmuşdur.

Sərəncamın 3-cü və 4-cü hissələrinin icrasını təmin etmək məqsədilə Agentlik tərəfindən hazırlanmış və aidiyyəti dövlət orqanları ilə razılaşdırılmış “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Nazirlər Kabinetinin Qərar layihəsi (nizamnamənin və strukturun layihələri) “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə uyğun olaraq (əsaslandırma, məcburi hüquqi ekspertiza rəyi, layihəni hazırlamış şəxslərin siyahısı) 2021-ci il 05 may tarixli PHŞ/2-2-2021-143 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli Fərmanı ilə təsdiq edilmiş Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsinin 3.1.45-ci bəndinə uyğun olaraq, Agentliyin ixtiraçılıq fəaliyyətinin keyfiyyətinin artması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferi və innovasiyalara dəstək mərkəzlərinin, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması infrastrukturunun yaradılması ilə bağlı təkliflər vermək və formalaşdırılmasında iştirak etmək vəzifələri vardır. Bununla əlaqədar, həmin vəzifələrin icrasının təmin olunması, o cümlədən biznes məkanında elmi bilikləri genişləndirmək, elm və sənaye arasında bağlantını təmin etmək, həmçinin ölkədə innovasiya infrastrukturunun yeni elementlərini inkişaf etdirmək və bununla da ölkədə innovasiyalı iqtisadiyyatın formalaşdırmasına əhəmiyyətli təkan vermək üçün Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması çox əhəmiyyətli addım olmuşdur.

Yeni yaradılan mərkəzin əsas vəzifələrinə əqli mülkiyyət obyektlərinin innovasiya potensialının qiymətləndirilməsi və onların kommersiyalaşdırılması yollarının seçimində yardım, innovasiya layihələri və elm tutumlu texnologiyalar üzrə məlumat bazasının yaradılması, əqli mülkiyyət obyektlərinin mənimsənilməsi və kommersiyalaşdırılması məqsədi ilə onların hüquqlarının əldə edilməsi və transferi (ötürülməsi), ölkəmizdə fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələrinin və innovasiya fəaliyyətinin monitorinqi, kiçik innovasiya müəssisələrinin (startapların) yaradılmasında, inkişafında və maliyyələşdirilməsində məsləhətçi dəstəyin göstərilməsi, əqli mülkiyyət obyektlərinin istifadəsində bazarın tələbatlarının öyrənilməsi, innovasiya texnologiyaların transferi, mənimsənilməsi, kommersiyalaşdırılması sahəsində beynəlxalq əməkdaşlığın qurulması və s. daxildir.

“Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədi ilə yaradılmış “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar işçi qrupunun 2021-ci il üçün Fəaliyyət Planı”nın aidiyyəti üzrə icrası çərçivəsində hesabat dövründə Beynəlxalq səviyyəli birgə ixtiralar üzrə müraciətlər üzrə ixtira fəallığının artırılmasını stimullaşdırmaq üçün yerli ərizəçilərin ölkə xaricində patent əldə etmələrinə dövlət tərəfindən dəstək verilməsi (subsidiya və s.) mexanizmləri ilə bağlı hazırlanmış təkliflərin tətbiq olunması istiqaməti üzrə nəzərdə tutulan tapşırıqlar yerinə yetirilmiş, bununla əlaqədar “İxtiraçılara dəstək məqsədi ilə stimullaşdırıcı tədbirlərin tətbiqi barədə” Əqli Mülkiyyət Agentliyi tərəfindən hazırlanmış Azərbaycan Respublikası Prezidentinin Fərman layihəsi Texnologiya və innovasiyalar İşçi qrupunun 2021-ci il 15 iyul tarixli iclasında geniş müzakirə edilmişdir. İşçi qrupun iclasda İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Təhsil Nazirliyi, Dövlət Vergi Xidməti, Dövlət Statistika Komitəsinin nümayəndələri iştirak etmişlər. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Fərman layihəsi Biznes mühiti və

beynəlxalq reytinqlər üzrə Komissiyanın “İşçi qrupunun fəaliyyətinin təşkili Qaydaları” ilə müəyyən edilmiş formaya uyğun olaraq aidiyyatı dövlət qurumlarına göndərilmiş və həmin layihə dövlət qurumları tərəfindən müsbət qiymətləndirilmişdir. Nazirlər Kabinetinin 2021-ci il 17 avqust tarixli 27400/25070aid (2020) nömrəli dərkənarına əsasən sənəd layihəsi Maliyyə və Ədliyyə Nazirliklərinə göndərilmiş və razılaşdırılma mərhələsindədir.

Bunlarla yanaşı, Dövlət başçısının göstərilən Fərmanından irəli gələn vəzifələr çərçivəsində hesabat ili ərzində aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

- Əqli mülkiyyət barədə real statistik məlumatların beynəlxalq reytinq təşkilatlarına çatdırılması istiqaməti üzrə fəaliyyət diqqət mərkəzində saxlanmışdır. Bununla əlaqədar, Əqli Mülkiyyət Agentliyi hər il mütəmadi olaraq əqli mülkiyyətə aid olan statistik məlumatları (İxtiraların iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; ixtiraların qeydiyyatı, sahibin ölkəsi üzrə; ixtiranın qeydiyyatı, iddia sənədlərinin verilmə tarixi üzrə; qüvvədə olan ixtiralar, sahibin ölkəsi üzrə; qüvvədə olan ixtiralar, iddia sənədinin verilmə tarixi üzrə; faydalı modellərin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; faydalı modellərin qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan faydalı modellər, sahibin ölkəsi üzrə; sənaye nümunələrin iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; iddia sənədlərinin təsnifat sinifləri üzrə hesabatı; sənaye nümunələrin qeydiyyatı, siniflər üzrə; sənaye nümunələrin qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan sənaye nümünələri, qeydiyyat ili üzrə; əmtəə nişanların iddia sənədlərinin Əmtəə və xidmətlərin beynəlxalq Nitsa təsnifatının sinifləri üzrə hesabat; iddia sənədlərinin mənşə ölkələri üzrə hesabatı; mənşə ölkələri üzrə kollektiv və sertifikasiya nişanları üzrə hesabat; prosedur qaydaları üzrə hesabat; əmtəə nişanların qeydiyyatı, siniflər üzrə; əmtəə nişanların qeydiyyatı, sahibin ölkəsi üzrə; qüvvədə olan əmtəə nişanları, qeydiyyat ili üzrə; qüvvədə olan kollektiv əmtəə nişanları, qeydiyyat ili üzrə; coğrafi göstəricilərin iddia sənədlərinin sayı üzrə hesabat; coğrafi göstəricilər (məhsul kateqoriyalarına görə) üzrə məlumat Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) təqdim edir. Həmin məlumatları və onların illər üzrə dinamikasını ÜƏMT-nin rəsmi saytının Azərbaycana aid bölməsində görmək mümkündür. ÜƏMT-nin saytında Azərbaycanın və ÜƏMT-yə daxil olan digər ölkələrin hər birinin özünəməxsus profili olur ki, həmin profil üzərindən dəyişiklikləri izləmək və təhlil etmək mümkündür. 2021-ci ilin aprel ayında 2020-ci ilin statistik göstəriciləri ÜƏMT-na təqdim edilmişdir.
- “Azərbaycanla bağlı göstəricilərin müvafiq metodologiyanın tələbləri baxımından araşdırılması, hesabatdakı göstəricinin mövcud vəziyyət əsasında müqayisəli qiymətləndirilməsi və qeyd olunan göstəricinin yaxşılaşdırılmasına dair təkliflərin hazırlanması” istiqaməti üzrə müvafiq araşdırmalar aparılmışdır.

Nəticələri aşağıdakı cədvəldə göstərilmişdir:

| İnnovasiya indikatorları | 2020 | | 2021 | |
|---|---|---|---|---|
| | Bal | Yer | Bal | Yer |
| 5.2.5 Patent ailələri | 0.0 | 93 | 0.0 | 81 |
| 6.1.1 Rezidentlərin patent müraciətləri | 1.0 | 64 | 1.3 | 56 |
| 6.1.2 Rezidentlərin PCT patent müraciətləri | 0.1 | 74 | 0.0 | 76 |
| 6.1.3. Rezidentlərin faydalı model müraciətləri | 0.2 | 50 | 0.4 | 39 |
| 7.1.1 . Rezidentlərin əmtəə nişanlarının müraciətləri | 21.2 | 91 | 26.0 | 80 |
| 7.1.3 . Rezidentlərin sənaye nümunələrin müraciətləri | 0.3 | 92 | 0.9 | 74 |

Qeyd etmək lazımdır ki, Dövlət başçısının rəhbərliyi altında ölkəmizdə, o cümlədən əqli mülkiyyət sahəsində həyata keçirilən islahatların müsbət nəticələri onun beynəlxalq reytinqlərdə mövqelərini daha da möhkəmləndirmiş, bu da nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır**.** Cornel Universiteti (ABŞ), INSEAD Biznes Məktəbi (Fransa) və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) birgə nəşri olan və bu il 132 ölkəni əhatə edən (keçən ilki reytinq 131 ölkəni daxil edirdi) Qlobal İnnovasiya İndeksi (GII) – 2021-ci ilin 14-cü nəşri də bunu təsdiq edir. Qlobal İnnovasiya İndeksi 2007-ci ildən nəşr edilir. Azərbaycan Respublikası 2021-ci il Qlobal İnnovasiya İndeksində mövqeyini xeyli yaxşılaşdırmışdır. Agentlik tərəfindən Qlobal İnnovasiya İndeksinin indikatorları təhlil olunub və nəticələri KİV-də açıqlanmışdır.

GİI-2021 reytinqi innovasiya fəaliyyətinin potensialı, səmərəliliyi və çərçivə şərtlərini əhatə edən 81 göstərici əsasında tərtib edilmişdir. Təhlil edilən göstəricilər qanunvericilik, elm və təhsildən tutmuş bazar, biznes, infrastruktur və s. məsələlərinin inkişafına qədər geniş məlumatlar spektrini ehtiva edir. GİI-nin nəşr edilməsinin əsas məqsədi ölkələrin innovasiya mexanizmlərinin səmərəliliyinin qiymətləndirilməsinə imkan yaratmaqdır.

GİI-2021 reytinqi innovasiya fəaliyyətinin iki yekunlaşdırıcı - "innovasiya resursları" və "innovasiya nəticələri" adlanan alt indekslərə daxil olan 7 qrup göstəricisindən ibarətdir. "İnnovativ resurslar" alt indeksi 5 qrupa: 1 - qurumlar; 2 - insan kapitalı və elm; 3 - infrastruktur; 4 - daxili bazarın inkişafı və 5 - biznesin inkişafı – bölünməklə innovasiya prosesləri baş verən milli iqtisadiyyatın elementlərini qiymətləndirməyə imkan verir. "İnnovativ nəticələr" alt indeksi iki qrupa: 6 - bilik və texnologiyaların yayılması və 7 - kreativ fəaliyyətin nəticələri – bölünməklə, innovasiya fəaliyyətinin faktiki nəticələrini əks etdirir.

GİI–2021-in lideri İsveçrədir, onun ardınca İsveç, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Cənubi Koreya gəlir. Ən innovativ ölkələrin ilk onluğuna eləcə də Niderland, Finlandiya, Sinqapur, Danimarka və Almaniya daxildir. Çin, reytinqdə 12 -ci yeri alaraq,

ikinci onluq ölkələr sırasına daxil olub. Postsovet məkanı ölkələri arasında ən yaxşı göstəricilər Estoniyaya (21 -ci yer), Latviyaya (38-ci yer), Rusiyaya (45-ci yer) və Litvaya (49-cu yer) məxsusdur. Azərbaycan isə ötən ilə nisbətən reytinqini daha da yaxşılaşdıraraq 80-ci yerdə qərarlaşmışdır.

**Azərbaycan üzrə Qlobal İnnovasiyalar İndeks indikatorları**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **Qlobal İnnovasiyalar İndeksi**<br>***- rank***<br>***- value*** | **93**<br>**30,1** | **85**<br>**29,6** | **82**<br>**30,6** | **82**<br>**30,20** | **84**<br>**30,21** | **82**<br>**27,2** | **80**<br>**28,4** |
| **5.2.5 Patent ailələri**<br>*- rank*<br>*- value* | 91<br>0,0 | 78<br>0,0 | 74<br>0,1 | 76<br>0,0 | 79<br>0,0 | 93<br>0,0 | 81<br>0,0 |
| **6.1.1 Rezidentlərin patent müraciətləri**<br>*- rank*<br>*- value* | 61<br>1,0 | 60<br>1,2 | 59<br>1,3 | 60<br>1,1 | 60<br>1,1 | 64<br>1,0 | 56<br>1,3 |
| **6.1.2 Rezidentlərin PCT patent müraciətləri**<br>*- rank*<br>*- value* | 99<br>0,0 | 94<br>0,0 | 99<br>0,0 | 72<br>0,1 | 67<br>0,1 | 74<br>0,1 | 76<br>0,0 |
| **6.1.3. Rezidentlərin faydalı model müraciətləri**<br>*- rank*<br>*- value* | 57<br>0,1 | 46<br>0,1 | 46<br>0,1 | 53<br>0,1 | 53<br>0,1 | 50<br>0,2 | 39<br>0,4 |
| **7.1.1 . Rezidentlərin əmtəə nişanlarının müraciətləri**<br>*- rank*<br>*- value* | 77<br>22,4 | 76<br>22,2 | 91<br>16,5 | 91<br>17,0 | 91<br>16,7 | 91<br>21,2 | 80<br>26,0 |
| **7.1.3. Rezidentlərin sənaye nümunələrin müraciətləri**<br>*- rank*<br>*- value* | 49*<br>0,2* | 87<br>0,3 | 107<br>0,1 | 110<br>0,1 | 110<br>0,1 | 92<br>0,3 | 74<br>0,9 |

*2015-ci ildə 7.1.2 Madrid əmtəə nişanlarının sahibləri

"İnnovativ resurslar" alt indeksi üzrə Azərbaycan reytinqdə MDB çərçivəsində Özbəkistanı (75), Ukraynanı (76), Moldovanı (80), Qırğızıstanı (81), Ermənistanı (85), Tacikistanı (104) qabaqlayaraq, 74-cü yeri tutur. "İnstitutlar" blokunda "iş mühiti" istiqaməti üzrə 33-cü, "biznesə başlamağın asanlığı" göstəricisi isə 9-cu yerdədir. "İnsan kapitalı və elm" blokunda "ibtidai məktəbdə şagird-müəllim nisbəti" göstəricisi üzrə 8-ci yeri tutur.

Qeyd etmək lazımdır ki, bu blokda "təhsil" inteqral göstəricisi üzrə Azərbaycan 2020-ci ildə olan 84-cü yerdən 2021-ci ildə 76-cı yerə qalxaraq öz mövqeyini yaxşılaşdırmışdır. Universitetlərin QS reytinqi üzrə Azərbaycan MDB ölkələri arasında Rusiya, Qazaxıstan, Ukrayna və Belarusdan sonra 5-ci yeri tutur.

"İnnovativ nəticələr" alt indeksi də kifayət qədər əhəmiyyətli olan alt indeksdir. Əgər "İnnovativ resurslar" alt indeksi innovasiyalar üçün əlverişlilik səviyyəsini əks etdirirsə, "innovativ nəticələr" alt indeksi bu sahədə nailiyyətləri əks etdirir. Bu alt indeks nə qədər yüksək olarsa, deməli innovativ imkanlar bir o qədər səmərəli istifadə olunur.

Agentlik tərəfindən "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Fərmanının aidiyyəti üzrə icrası ilə əlaqədar "Biznes mühiti və beynəlxalq reytinqlər komissiyasının işçi qruplarının fəaliyyətinin təşkili Qaydası"na əsasən Əqli Mülkiyyət Agentliyinin rəsmi saytının baş səhifəsində (copat.gov.az) Komissiyanın internet portalına (https://azranking.az) keçid yerləşdirilmişdir.

Həmçinin Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İnsan kapitalı işçi qrupunun 2021-ci il fəaliyyət planının icrası ilə əlaqədar aidiyyəti üzrə görülmüş işlər barədə məlumat Təhsil Nazirliyinə təqdim edilmişdir.

Dünya Bankının yaydığı "Millətlərin dəyişən sərvəti 2021: Gələcək naminə aktivlərin idarə edilməsi" Hesabatı Agentlik tərəfindən təhlil edilmiş və təhlilin nəticələri barədə mətbuata geniş açıqlama verilmişdir. Açıqlamada göstərilmişdir ki, "Hesabat 1995-2018-ci illərə görə dünyanın 146 ölkəsinin yenilənmiş məlumat bazasının və illik rifah göstəricilərinin dərin təhlili əsasında hazırlanmışdır. Hesabatda nəzərdən keçirilən sərvəti yaradan resursların spektri bu gün ən genişidir və özündə dörd göstərici qrupunu birləşdirir. Birinci qrupa bərpa olunmayan və bərpa olunan təbii resurslar daxildir. Bərpa olunmayan resurslara 14 növ mineral-xammal və mədən enerji daşıyıcıları aiddir. Bərpa olunan resurslar isə əkin sahələri, otlaqlar, odun və meşələr, xüsusi mühafizə olunan təbiət əraziləridir. İkinci qrupa istehsal edilmiş kapital və şəhər torpaqları - infrastruktur, maşınlar, binalar, avadanlıqlar və şəhərlərin əraziləri daxildir. Üçüncü qrupa insan kapitalı daxildir ki, bu da insanın bütün həyatı boyu iş qüvvəsindən əldə olunan iqtisadi fayda baxımından qazancının diskontlaşdırılmış miqdarı kimi ölçülür. Təhsil və kvalifikasiya, həmçinin təcrübə və müxtəlif mərhələlərdə iş qüvvəsində iştirak ehtimalı nəzərə alınır. Dördüncü qrupa ölkənin xarici aktiv və öhdəliklərinin (özəl və dövlət sektoru daxil olmaqla) cəmi kimi hesablanan xalis xarici aktivlər daxildir.

Hesabatda adı çəkilən bütün ölkələrin öz tarixi inkişafı, coğrafi mövqeyi, təbii ehtiyatları, milli iqtisadiyyatı, sosial həyat xüsusiyyətləri vardır. Ölkələri bu və digər göstəricilərinə görə təhlil və müqayisə edərkən heç də həmişə düzgün hərtərəfli mənzərəni əldə etmək mümkün olmur. Əhəmiyyətli təbii sərvətlərə malik olan bir ölkəni bu cür sərvətlərə malik olmayan ölkə ilə necə müqayisə etmək olar?! Hesabatda göstərildiyi kimi, Azərbaycan imtiyazlı vəziyyətdə olan ölkədir. Belə ki, ölkəmiz ümumi sərvətdə (neft, qaz, metallar və minerallar nəzərdə tutulur) bərpa olunmayan təbii kapitalın ən yüksək payına malik olan ölkələr arasında reytinqdə İraq, Səudiyyə Ərəbistanı və Küveytdən sonra dördüncü yeri tutur. Hesabatda 1995-2018-ci illər ərzində ölkədə adambaşına düşən ÜDM-in 3 dəfə artdığı qeyd edilmişdir. Həmin dövrdə

istehsal edilmiş kapital və insan kapitalı iki dəfədən çox artmış, bərpa olunan təbii kapital isə əvvəlki səviyyədə qalmışdır. Eyni zamanda, təbii resursların satışından əldə olunan gəlirlər milli iqtisadiyyatın şaxələndirilməsinə - qeyri-neft sektorunun artmasına yönəldilir. 2021-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda ÜDM-in artımı 4,8%, neft-qaz sektorunda 1,4%, qeyri-neft sektorunda isə 6,2 faiz təşkil etmişdir. Yəni bərpa olunmayan təbii kapitalın istehsal kapitalına yenidən bölüşdürülməsi baş verir; yollar, körpülər, idman obyektləri tikilir, sosial infrastruktur yaradılır, şəhərlər abadlaşdırılır və s. Onu da qeyd etmək lazımdır ki, 2014-cü ildən başlayaraq istehsal kapitalının yığımı müşahidə olunur və "multiplikator effekti" adlanan bu proses müəyyən dövrdə ölkə iqtisadiyyatının keyfiyyət artımına töhfə verəcəkdir.

Hesabatda qeyd olunur ki, təhlil edilən dövrdə ölkənin bərpa olunan resursları əvvəlki səviyyədə qalır. Yəni bu təbii resursların planlı şəkildə doldurulması baş verir; meşələr salınır, təbiəti mühafizə zonaları genişləndirilir, Xəzər dənizinin ekosistemi yaxşılaşdırılır. Təbii ki, resursların əhəmiyyətli hissəsi insan kapitalına, insanların rifah halının yaxşılaşdırılmasına yönəldilir; təhsilin səviyyəsi, işçilərin kvalifikasiya və intellektual səviyyəsi və əhalinin maddi rifah halı yüksəlir. Dünya Bankının əvvəlki hesabatı ilə müqayisədə insan kapitalı göstəricisinin millətin ümumi sərvətində payının 9 faiz bəndi artması buna sübutdur. Dünya Bankının 2020-ci il "İnsan kapitalı indeksi" hesabatında Azərbaycan üçün bu göstərici 0,58-ə bərabərdir. Bu isə bu gün doğulan uşaqlar üçün gələcəkdə 58% optimal sağlamlıq və tam təhsil almaq ehtimalını bildirir. Azərbaycan üçün indeks orta-yüksək gəlirli ölkələr üçün orta göstəriciyə uyğundur. Dünya Bankının hesablamalarına görə, Azərbaycanın bu indeksi yaxşılaşdırmaq potensialı vardır. Beləliklə, belə nəticəyə gəlmək olar ki, 1995-2018-ci illər dövründə istehsal kapitalının və insan kapitalının artımı, habelə bərpa olunan təbii kapitalın əvvəlki səviyyədə saxlanması Azərbaycanın zəngin olduğu əsas resursun-bərpa olunmayan təbii kapitalın rasional, ölçülüb-biçilmiş və qənaətcil istifadəsi hesabına həyata keçirilmişdir".

26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibəti ilə 2021-ci ildə ÜƏMT kiçik və orta sahibkarlıq subyektlərində innovativlik mədəniyyətinin formalaşdırılması və əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafına necə töhfə verməsini ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə beynəlxalq ictimaiyyətə ünvanladığı müraciət azərbaycan dilinə tərcümə edilərək yayılmışdır. 2021-ci ildə Beynəlxalq Əqli Mülkiyyət Günü ilə bağlı tədbirlər "Əqli mülkiyyət və kiçik və orta biznes: ideyaları necə kommersiyalaşdırmaq" devizi altında keçirilmişdir. Bu tədbirlər iqtisadiyyatda kiçik və orta biznesin mühüm rolunu vurğulamaqla, onların daha güclü, rəqabətqabiliyyətli və dayanıqlı müəssisələr yaratmasında əqli mülkiyyət hüquqlarından necə istifadə olunacağını göstərir. Müraciətdə qeyd olunur ki, "istənilən biznes ideyadan başlayır. Dünyadakı milyonlarla kiçik və orta müəssisədən hər biri ideyadan başlamış, onu kimsə fikirləşmiş və bazara çıxarmışdır. İdeya ixtiraçılıq, nou-hau və istedadla birlikdə əqli mülkiyyət aktivinə çevrilir və bu, biznesin inkişafına, iqtisadi canlanmaya və bəşəriyyətin tərəqqisinə töhfə verə bilir. İnkişaf etmiş ölkələrdə artıq əqli mülkiyyət aktivləri maddi aktivləri üstələyərək dünya iqtisadiyyatında yeni mərhələ yaratmaqdadır. Vaxtilə xammal və materiala əsaslanan iqtisadiyyat yeni mərhələdə kreativ iqtisadiyyata çevrilmiş və nəticədə əqli mülkiyyət fenomeni prioritet fəaliyyət və təhlil istiqaməti kimi formalaşmışdır. Bu gün əqli mülkiyyət hər bir ölkənin davamlı inkişafında əsas rol oynayır. Bu gün iqtisadi canlanma hər zaman olduğundan daha vacibdir".

Buna görə də 2021-ci il Beynəlxalq Əqli Mülkiyyət Günü kiçik və orta müəssisələrin iqtisadiyyatda oynadığı əsas rola və onların daha güclü, daha rəqabətqabiliyyətli və daha davamlı olması üçün əqli mülkiyyətdən necə istifadə edə biləcəklərinə həsr edilmişdir.

2021-ci il beynəlxalq Əqli Mülkiyyət Gününün daha bir vacib mövzusu Ümumdünya Əqli Mülkiyyət Təşkilatının dünyanın hər yerində olan milli və regional ofisləri ilə birlikdə kiçik və orta müəssisələrin innovasiyaları inkişaf etdirmək, özlərinin yaradıcılıq potensialını reallaşdırmaq, iqtisadi canlanmaya kömək etmək və iş yerləri açmaq üçün əlverişli şəraitlər yaradılmasında oynadığı vacib rolla bağlıdır.

## 2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.

Hesabat dövründə Agentliyin fəaliyyətinin hüquqi çərçivəsini müəyyən edən hüquqi bazanın genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində işlər aparılmış, o cümlədən olkəmizdə aparılan struktur və iqtisadi islahatlar çərçivəsində ölkə başçısının 2018-ci il 20 aprel tarixli 5 nömrəli Sərəncamının icrası, eləcə də əqli mülkiyyət qanunvericiliyinin beynəlxalq qanunvericiliyə uyğunlaşdırılması ilə bağlı bir sıra qanunvericilik aktları qəbul edilmiş və ya müvafiq dəyişikliklər edilmişdir.

Bu istiqamətdə 2021-ci ildə aşağıda adları göstərilən Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 3 Qanun, Azərbaycan Respublikası Prezidenti tərəfindən 3 Fərman, 2 Sərəncam imzalanmış, Nazirlər Kabinetinin 8 qərarı və 5 sərəncamı qəbul edilmişdir:

**I. Qanunlar:**

1. “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 290-VIQD nömrəli Qanunu;
2. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 274-VIQD nömrəli Qanunu;
3. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Banklar haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 22 dekabr tarixli 230-VIQD nömrəli Qanunu;

**II. Azərbaycan Respublikası Prezidentinin Fərmanları:**

1. “Azərbaycan Respublikası Prezidentinin “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 617-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2017-ci il 16 iyun tarixli 1459 nömrəli, “Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası”nın və “www.azexport.az” internet portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli, “İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı haqqında Əsasnamə”nin təsdiq edilməsi haqqında” 2017-ci il 28 oktyabr tarixli 1642 nömrəli, “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 887-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 29 dekabr tarixli 1774 nömrəli və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1914 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 yanvar tarixli 1274 nömrəli Fərmanı;

2. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 274-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi”ndə və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 1302 nömrəli Fərmanı;

3. “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanı;

**III. Azərbaycan Respublikası Prezidentinin Sərəncamları:**

1. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 noyabr tarixli 2983 nömrəli Sərəncamı;

2. “K.S.İmanovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 noyabr tarixli 2985 nömrəli Sərəncamı.

**IV. Nazirlər Kabinetinin qərarları:**

1. “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 aprel tarixli 104 nömrəli Qərarı;

2. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ünvan Reyestri İnformasiya Sistemi ilə inteqrasiya olunacaq digər dövlət orqanlarının informasiya sistemlərinin dairəsi”nin təsdiq edilməsi barədə” 2012-ci il 24 dekabr tarixli 318 nömrəli, “Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları”nın təsdiq edilməsi barədə” 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli, “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”nın və “İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “Elektron hökumət” portalına qoşulması üçün Texniki Tələblər”in təsdiq edilməsi haqqında” 2014-cü il 1 may tarixli 118 nömrəli, “Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 9 iyun tarixli 191 nömrəli və “Tikintiyə icazədə nəzərdə tutulan əlavə şərtlərin siyahısı və onların tətbiqi halları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 11 sentyabr tarixli 304 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 fevral tarixli 29 nömrəli Qərarı;

3. “Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 228 nömrəli Qərarı;

4. “Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması Qaydası”nın və “Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması barədə Şəhadətnamənin nümunəsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 233 nömrəli Qərarı;

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” 1997-ci il 2 may tarixli 38 nömrəli və “Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında” 2004-cü il 9 yanvar tarixli 2 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 avqust tarixli 242 nömrəli Qərarı;

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” 2018-ci il 16 may tarixli 220 nömrəli, “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 aprel tarixli 135 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə” 2018-ci il 13 oktyabr tarixli 443 nömrəli və “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 13 oktyabr tarixli 444 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 avqust tarixli 246 nömrəli Qərarı;

7. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” 1997-ci il 2 may tarixli 38 nömrəli, “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısının təsdiq edilməsi haqqında” 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli və “Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları”nın və “Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2019-cu il 7 may tarixli 211 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 sentyabr tarixli 249 nömrəli Qərarı;

8. “Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonorarın minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 24 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 sentyabr tarixli 250 nömrəli Qərarı.

**V. Nazirlər Kabinetinin Sərəncamları:**

1. “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 290-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 271s nömrəli Sərəncamı;

2. “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində “Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi”nin yaradılması

haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 aprel tarixli 1308 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 aprel tarixli 235s nömrəli Sərəncamı;

3. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 274-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 iyul tarixli 222 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Nizamnaməsi”ndə və “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 1302 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 2 aprel tarixli 213s nömrəli Sərəncamı;

4. “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Banklar haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 22 dekabr tarixli 230-VIQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 19 yanvar tarixli 56s nömrəli Sərəncamı;

5. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 8 oktyabr tarixli 438 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 noyabr tarixli 2983 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 15 noyabr tarixli 653s nömrəli Sərəncamı.

**3. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların tətbiqinə və innovasiyalara dəstək.** Azərbaycan Respublikası hazırda özünün innovativ inkişaf yolu mərhələsindədir. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə dərin iqtisadi islahatlar həyata keçirilir. İqtisadi həyatda müşayiət olunan tendensiyalar və nailiyyətlər, innovativ inkişafdakı uğurlar texnologiyaların kommersiyalaşdırılması üzrə əlverişli şəraitin yaradılması və əqli mülkiyyətin qorunması və idarə edilməsi vəziyyəti ilə sıx bağlıdır. Bununla əlaqədar, innovativ inkişafa və texnoloji nəticələrin tətbiq olunması üzrə imkanların yaradılmasına məsul olan strukturlar bütövlükdə və o cümlədən, əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr dövlət başçısı tərəfindən müəyyən edilmiş siyasətdən irəli gələn tendensiya və tələblərə uyğun olmalı, həyata keçirilən islahatlara dəstəyi təmin etməlidir.

Hesabat dövründə Agentlik əqli fəaliyyət nəticələri olan yeni texnologiyalardan iqtisadi effektin alınması üçün onların tətbiqi və kommersiyalaşdırılması mexanizmlərinin nəzəri və praktiki aspektlərinə dair araşdırmalarını davam etdirmişdir. Bu araşdırmalar bir neçə istiqamətdə ardıcıl olaraq həyata keçirilir:

- texnoloji bazarın araşdırılması;
- kommersiyalaşdırma mexanizminin təkmilləşdirilməsi məqsədilə metodologiyanın inkişafı;
- ali təhsil və elmi tədqiqat müəssisələrində texnologiyaların transferi və kommersiyalaşma mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər, o cümlədən "Ali təhsil müəssisələrin innovasiya pasportu” layihəsinin və universitetlərin hər bir modul üzrə və

bütövlükdə integral innovasiya göstəricisinin hesablanmasına dair metodologiyanın hazırlanması, innovasiya layihələrinin monitorinqi.

Hesabat ilində perspektivli innovasiya layihələrinin və əqli fəaliyyət nəticələrinin təşviqi ilə əlaqədar tədbirlər, o cümlədən milli, Avrasiya və PCT patentlərini əhatə edən layihələrə dair yaradılmış məlumat bazası əsasında statistik təhlillər, seçilmiş patentlərin elektron kataloqunun tərtib edilməsi, digər ölkələrin texnologiyaların transferi və innovasiya şəbəkələri və qurumları ilə əməkdaşlıq, universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində İP ofislərin yaradılması və mövcud ofislərin texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzlərinə çevrilməsi, Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzinin yaradılması istiqamətlərində tədbirlər davam etdirilmişdir. 2021-civ ildə Əqli Mülkiyyət Agentliyinin tabeliyində "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi"nin yaradılması da bu məqsədlərə xidmət edir.

Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində Agentlik və Avrasiya Patent Təşkilatı tərəfindən verilmiş qüvvədə olan ixtira patentlərinin kommersiyalaşdırılması və tətbiq olunması məqsədi ilə Təhsil Nazirliyi üzrə təhlil aparılmışdır. Bunun nəticəsi olaraq, Təhsil Nazirliyinin aşağıda göstərilən ali təhsil müəssisələrinin qüvvədə olan ixtira patentləri seçilmişdir: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti üzrə - 31, Bakı Dövlət Universiteti üzrə - 17, Azərbaycan Texniki Universiteti üzrə - 3, Azərbaycan Dövlət Pedaqoji Universiteti üzrə - 1, Azərbaycan Dövlət İqtisad Universiteti üzrə - 1. Həmin patentlərin təfərrüatlı izahlı-arayışı Agentlik tərəfindən hazırlanaraq Təhsil Nazirliyinə göndərilmiş, onların milli iqtisadiyyatda tətbiqinə və kommersiyalaşdırılmasına yardım göstərilməsinə dair təkliflər verilmişdir.

Əqli mülkiyyət hüquqlarının qorunmasının, Azərbaycanın iqtisadi, siyasi, elmi və mədəni inkişafı üçün əhəmiyyətini nəzərə alaraq, Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsində bu sahənin təhsil və elmdə daha da sürətli və keyfiyyətli inkişafına şərait yaratmaq məqsədilə bir sıra addımlar atılmışdır. Belə ki, fakültədə "Əqli mülkiyyət hüququ" ixtisası üzrə yeni magistr proqramı təsis edilmişdir. Hazırda bu proqram üzrə tədris müvəffəqiyyətlə davam etdirilir. "Əqli mülkiyyət hüququ" ixtisası üzrə yeni magistr dərəcəsi proqramının yaradılması yalnız BDU miqyasında deyil, bütün ölkə miqyasında təməlqoyucu və yenilikçi bir addım olmuş və Azərbaycanda hüquq sahəsi üzrə bu aktual sahədə yaradılan ilk magistr proqramıdır.

Eyni zamanda, Lyon 2 Universiteti (Fransa) ilə BDU arasında əqli mülkiyyət hüququ üzrə ikili diplomlu magistr programı təsis etmək məqsədi ilə əməkdaşlıq qurulmuşdur. Bu əməkdaşlığın nəticəsi olaraq 16 aprel 2021-ci ildə ikili diplomlu magistr dərəcəsinin yaradılması haqqında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən proqram çərçivəsində tədris ingilis və fransız dillərində aparılacaqdır. Müqavilə həmin sahə üzrə fundamental və geniş biliklər əldə etmək üçün vacib olan hərtərəfli tədris planları və kurrikulumlar, yeni təhsil və təlim proqramlarının formalaşdırılmasında sıx əməkdaşlığı nəzərdə tutur.

Əqli Mülkiyyət Agentliyi və BDU-nın sıx əməkdaşlıq yolu ilə həyata keçirilmiş layihə əsasında BDU-da yaradılmış yeni Əqli mülkiyyət hüququ kafedrası hazırda uğurla fəaliyyət göstərməkdədir. Əqli Mülkiyyət Agentliyi bu prosesdə aparıcı rol oynayır, tədrisin təşkilinə, stajkeçmələrə, kafedranın elmi-məlumat bazasının formalaşmasına dəstək verir. 2021-ci ildə "Əqli mülkiyyət hüququ" və "İnformasiya hüququ" ixtisasları üzrə magistr pilləsində təhsil alan magistrantların 12 nəfərinin Əqli Mülkiyyət Agentliyində təcrübə keçmələri təmin edilmişdir.

Əqli mülkiyyət hüququ kafedrasının yaradılması bakalavr və magistratura səviyyələrində təhsil alan tələbələr üçün bu hüquqları əhatə edən dərsliyin yaxın

vaxtlarda yazılıb nəşr edilməsini, gələcəkdə bu sahədə fəaliyyət göstərəcək yüksək ixtisaslı alim və mütəxəssisləri hazırlamaqla müvafiq sahələrdə elmi bazanın genişləndirilməsini asanlaşdıracaqdır. Eyni zamanda Hüquq fakültəsi əqli mülkiyyət hüququ üzrə beynəlxalq səviyyədə əməkdaşlığı davam etdirmək niyyətindədir. BDU ilə əqli mülkiyyət sahəsində əməkdaşlığı daha da dərinləşdirmək məqsədilə Əməkdaşlıq haqqında Memorandum imzalanması, eyni zamanda Əqli mülkiyyət kafedrasının Agentlikdə filialının yaradılması nəzərdə tutulur və bu istiqamətlərdə iş aparılır.

21 dekabr 2021-ci il tarixində Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda keçirilən konfransda Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin “İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları” adlı təqdimatla çıxış etmişdir. O, qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əqli mülkiyyət sahəsində islahatları bu sahənin yeniləşən mahiyyətinə uyğundur. Ölkəmizdə həyata keçirilən iqtisadi və institusional islahatların əqli mülkiyyət ekosisteminə təsiri və əqli mülkiyyətin dəyişmiş kontekstinin innovasiyalı inkişafa dəstəyi məsələləri barədə danışan Agentliyin rəhbəri demişdir: “Müsbət trendləri və nəticələri davam etdirmək mümkündür. Lakin ən mühümü odur ki, cənab Prezident İlham Əliyevin əqli mülkiyyət sahəsində apardığı konseptual və institusional islahatlar əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğundur və sistemli xarakter daşıyaraq, ölkənin iqtisadi islahatlarına qulluq edir”. Əqli mülkiyyətə ənənəvi yanaşmanın artıq reallıqları ifadə etmədiyini qeyd olunaraq, bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin əqli mülkiyyət kateqoriyasının müasir, yeniləşmiş kontekstinə uyğun olan institusional islahatı nəticəsində əqli mülkiyyət sahəsində yeni idarəetmə modeli və strukturu yaranmışdır. Bu, özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı (3K) birləşdirən özünəməxsus idarəetmə modelinin aktuallaşdırması, yəni biliklərin əldə və dərk edilməsi, yeni biliyin yaradılması və kommersiyalaşaraq, innovasiyaya çevrilməsinə xidmət edən bir strukturdur. Bu isə institusional islahatın effektivliyinin təsdiqidir. Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edildiyi və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət etdiyi vurğulanmışdır.

Agentliyinin təşəbbüsü ilə ölkəmizin nümayəndələri Avrasiya Patent Təşkilatının 25 illiyinə həsr olunmuş “Gələcəyə baxış” Avrasiya Patent Universiadasında iştirak etmişlər. Bu bilik yarışmasında Avrasiya Patent Konvensiyasının üzvü olan dövlətlərin təhsil müəssisələrinin tələbələri və 18-25 yaş arasında digər gənclər iştirak ediblər. Universiadanın nəticələrinə görə, Azərbaycan nümayəndələri Seymur Talıbov və Qüdrət Ağazadənin "Tibbi müəssisələrdə koronavirus COVID-19-un aşkarlanması və avtomatik aradan qaldırılması üçün mobil robot" layihəsi “Virusdan qorunma - düşmən keçməz! Həkimlərin və xəstələrin infeksiyadan fərdi qorunma sistemləri” mövzusu üzrə 2-ci, Zərifə Əhmədzadə və Elvin Əhmədzadənin “Elektronika üçün epitaksial CdFeTe plyonkaları” layihəsi “Biz N.Teslanın nəslindənik. Bütün təbiət qanunları bizim əlimizdədir” mövzusu üzrə 3-cü yerə layiq görülmüşlər. 2021-ci il iyun ayının 17-də Agentlikdə “Gələcəyə baxış” Avrasiya Patent Universiadasının qalibləri olan azərbaycanlı gənclərlə keçirilən görüşdə Agentliyin İdarə Heyətinin üzvü, sədr müavini gəncləri və onların elmi rəhbərlərini Agentliyin İdarə Heyətinin sədrinin adından təbrik etmiş, gələcək elmi fəaliyyətlərində onlara uğurlar arzulamış, diplom və hədiyyələr təqdim etmişdir.

Tədbirdə iştirak edən Avrasiya Patent Təşkilatının vitse-prezidenti Emil Məmmədov təşkilatın fəaliyyəti, Universiadanın keçirilməsi haqqında qısa məlumat vermiş və qalibləri təbrik etmişdir. Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov və Sumqayıt Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru Ramazan Məmmədov Əqli Mülkiyyət Agentliyinə gənc ixtiraçı və

alimlərə diqqətinə görə minnətdarlıqlarını bildirərək, Avrasiya Patent Təşkilatının keçirdiyi Universiadada iştirak etmək üçün təşəbbüsü təqdir etmişlər.

Qabaqcıl ölkələrin innovasiyaların kommersiyalaşdırılması üzrə təcrübəsini öyrənmək məqsədilə Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən innovasiya sahəsində aparılan tədqiqatlar çərçivəsində MDB ölkələrində və Finlandiyada innovasiyaların kommersiyalaşdırılması prosesi araşdırılaraq, fərqli biznes modellərinin müqayisəli təhlili aparılmış və innovasiyalı startap layihələrin inkişafına təsir edən faktorlar və onların qiymətləndirilməsində istifadə olunan parametrlər müəyyən edilmişdir.

Bu istiqamətlərdə aparılan işlərə dəstək verilməsi və sahə üzrə biliklərin artırılması məqsədilə il ərzində müxtəlif tədbirlərdə "İnnovasiyaların kommersiyalaşdırılması sisteminin təmin edilməsi" altməqsədi əsasında innovasiya ekosisteminin uğurlu inkişafının təmin edilməsinin sistemli analizi", "Связь авторского и патентного права: нормативно-правовые и коллизионные аспекты", "Права интеллектуальной собственности и экономическое развитие", "О задачах, стоящих перед системой интеллектуальной собственности в контексте ее развития" mövzularında təqdimatlar olmuş və onların əsasında kitab və braşurlar çap edilmiş, "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair yaddaş kitabçası (azərbaycan və rus dillərində) hazırlanmış, həmçinin "Azərbaycanın texnoloji profili və dünyanın qabaqcıl texnoloji sahələri (patent analitikası)", "Что нужно, чтобы инновации рождались, внедрялись и приносили доход? (экспертные оценки и материалы социологических исследований МСП)", "Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması" və s. kitab və broşurlar təkrar çap edilərək maraqlı şəxslər arasında yayılmışdır.

**4. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.** 2021-ci hesabat ilində əqli mülkiyyət obyektlərinin qeydiyyata alınması, qeydiyyat müddətlərinin uzadılması, qanunvericiliyin tətbiqində və ekspertiza prosedurlarının həyata keçirilməsində şəffaflıq və tələbkarlıq prinsipləri qorunmuş, o cümlədən ixtiraların və faydalı modellərin qeydiyyata alınması üzrə prosedurlar icra olunarkən "İddiaçı-ekspert" arasında elektron qaydada ünsiyyət" prinsipi tətbiq edilmiş, iddia sənədlərinin qəbulu, ekspertizası və qeydiyyatının "vahid pəncərə" prinsipi əsasında həyata keçirilməsi təmin edilmiş, beynəlxalq patentlərin qeydiyyatı üzrə PCT sisteminin geniş tətbiqi davam etdirilmişdir. Bu işlərin həyata keçirilməsində ötən hesabat ilində istifadəyə verilmiş və Hökumət Ödəniş Portalına inteqrasiya olunmuş PƏNAH rəqəmli informasiya sisteminin, həmçinin sənaye mülkiyyəti məsələləri ilə bağlı müraciətlərə daha operativ reaksiya göstərilməsi məqsədilə yeni yaradılmış "Çağrı mərkəzi"nin böyük əhəmiyyəti olmuşdur.

**4.1. Sənaye mülkiyyəti obyektlərinə dair iddia ərizələrinə baxılması nəticələri.** Hesabat dövründə əqli mülkiyyət hüquqlarının obyektləri barəsində daxil olmuş iddia sənədlərinin ekspertizası və həmin obyektlərin dövlət qeydiyyatı üzrə aşağıdakı istiqamətlərdə işlər görülmüşdür:

**İxtira, faydalı model və sənaye nümunəsi üzrə.** Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinə ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 193 iddia sənədi (ixtiraya aid 135; faydalı modelə aid 32; sənaye nümunəsinə aid 26 iddia sənədi) daxil olmuşdur.

Hüquqların növləri üzrə daxil olan iddia sənədləri, iddia sənədləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada iddiaçılara və digər maraqlı şəxslərə göndərilən (verilən) bildirişlərə, sorğulara və arayışlara dair statistik məlumatlar cədvəl 1-də verilmişdir:

**Cədvəl 1**

| № | Hüquqların növləri üzrə hüquqi hərkətlər | Milli iddia sənədləri | | | Beynəlxalq (PCT) prosedur üzrə göndərilmək üçün milli iddia sənədləri | Avrasiya patent təşkilatına (APT) göndərilmək üçün milli iddia sənədləri |
|---|---|---|---|---|---|---|
| | | İxtira | Faydalı model | Sənaye nümunəsi | | |
| | **İLKİN EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 1 | Daxil olan iddia sənədlərinin sayı | **135** | **32** | **26** | **5** | **35** |
| 2 | İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildiriş verilmiş iddia sənədlərinin sayı | **93** | **15** | **19** | | |
| 3 | Iddia sənədlərinə verilmiş sorğuların sayı | **86** | **7** | **31** | | |
| 4 | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **11** | **2** | **5** | | **1** |
| 5 | Iddia sınıdlərinə verilmiş müxtəlif növ (düzəlişlərin,dəyişilliklərin ödənişlərin edilməsi barədə) bildirişlərin sayı | **138** | **20** | **25** | | |
| 6 | İddia sənədlərinə dair aparılan axtarışların sayı | **140** | **11** | 21 | | |
| 7 | Hazırlanmış və BB-ya və ya AAPİ-yə göndərilmiş iddia sənədləri | **-** | **-** | **-** | **3** | **19** |
| | **MAHİYYƏTCƏ EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 8 | Məlumatın dərci haqqında iddia sənədlərinə verilmiş rəy(qərar)ların sayı | **132** | **37** | **20** | | |
| 9 | İddia sənədllərinə verilmiş sorğularının sayı | **165** | **27** | **16** | | |
| 10 | Patent verilməsindən imtina haqqında qərarların sayı | **2** | **1** | **1** | | |
| 11 | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **46** | **13** | **4** | | |
| 12 | İddia sədlərinə verilmiş müxtəlif növ (düzəlişlərin,dəyişilliklərin ödənişlərin edilməsi) bildirişlərin sayı | **52** | **23** | **25** | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 13 | İddia sənədinin ixtiradan faydalı modelə çevrilməsi haqqında verilmiş bildirişlərin sayı | **8** | **-** | | | |

| |
|---|
| **Cəmi 142**<br>*ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı - **142***<br>*ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı - 0* |

Hesabat dövründə Agentliyə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı PCT proseduru üzrə ixtiraya dair 16, faydalı modelə dair 2 iddia sənədi və konvensiya ilkinliyi üzrə ixtiraya dair 1, faydalı modelə dair 6 xarici iddia sənədi daxil olmuşdur. PCT proseduru üzrə Beynəlxalq Büroya ixtitaya dair 3 iddia sənədi, Avrasiya Patent Təşkilatina (APT) ixtiraya dair 19 iddia sənədi göndərilmişdir.

Haaqa proseduru üzrə beynəlxalq sənaye nümunələrinə dair 142 iddia sənədinə dair axtarış aparılmış və axtarışı müsbət nəticələnmiş 142 iddia sənədi Agentliyin "Sənaye mülkiyyəti" bülletenində dərc edilmişdir.

İxtira səviyyəsinə dair tələblər ödənilmədiyinə görə qeydiyyat üçün təqdim edilmiş qurğuya aid 8 iddia sənədi iddiaçının vəsatəti əsasında "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinin 9-cu hissəsinə uyğun olaraq ixtiradan faydalı modelə çevrilmişdir.

**Əmtəə nişanları və coğrafi göstəricilər üzrə.** Hesabat ilində kargüzarlıqda olan iddia sənədləri üzərində ekspertiza aparılaraq əmtəə nişanlarına dair 3797 ədəd ilkin ekspertiza bildirişi, 2853 ədəd iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında arayış, 1014 ədəd ekspertiza sorğusu, 516 ədəd iddia sənədinin geri çağırılması haqqında ləğv bildirişi, 3160 ədəd əmtəə nişanının qeydiyyata alınması haqqında rəy (qərar), 1121 ədəd əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd bildirişi, 889 ədəd əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd rəyi (qərar), coğrafi göstəriciyə dair 1 ədəd ilkin ekspertiza bildirişi tərtib edilərək iddiaçılara təqdim edilmişdir.

**Cədvəl 2**

| Əmtəə nişanlarının qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədləri üzrə görülən işlər | Coğrafi göstəricinin qeydiyyata alınması ilə bağlı daxil olan iddia sənədlərinin sayı |
|---|---|
| **Cəmi daxil olub – 3260, o cümlədən sürətli işlərin sayı - 857**<br>*ekspertizası müsbət nəticələnmiş iddia sənədlərinin sayı –**3160** (o cümlədən 2018, 2019, 2020 və 2021-ci illərdə daxil olmuş iddia sənədləri üzrə)*<br>*3160 qeydiyyat haqqında qərardan **1227-si** 2021-ci ildə daxil olmuş iddia sənədləri üzrə müsbət nəticələnmiş ekspertizaya aiddir* | **1** |

| | |
|---|---|
| *ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı –**889** (o cümlədən 2018, 2019, 2020 və 2021-ci illərdə daxil olmuş iddia sənədləri üzrə)*<br>*889 imtina haqqında qərardan **476-sı** 2021-ci ildə daxil olmuş iddia sənədləri üzrə imtina ilə nəticələnmiş ekspertizaya aiddir*<br>İmtina haqında Bildiriş- **(2021-ci il daxil olmaqla) 1121 ədəd**<br>Bildiriş- **3797 ədəd** (ilkin ekspertiza)<br>Arayış- **2853 ədəd** (ilkin ekspertiza)<br>İddia sənədinin geri çağırılması haqqında bildiriş - **516 ədəd** (ilkin ekspertiza və mahiyyət üzrə ekspertiza) | |

Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasından əmtəə nişanları ilə bağlı ümumilikdə 226 qərar icra və məlumat üçün göndərilmişdir

**Cədvəl 3**

| **Naxçıvan Muxtar Respublikasından Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin Milli əmtəə nişanları və coğrafi göstəricilər sektoruna daxil olan iddia sənədləri** |
|---|
| Milli əmtəə nişanları üzrə daxil olan iddia sənədləri |
| **91**<br>***53 müsbət qərar, 6 imtina qərarı verilib. Qalanların ekspertizası davam etdirilir.*** |

**Beynəlxalq əmtəə nişanları üzrə.** Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə kargüzarlıqda olan 4013 ədəd bildiriş (2020-ci il və 2021-ci illin aprel ayına qədər daxil olmuş bildirişlər) üzrə Azərbaycanda hüquqi mühafizə verilməsi üçün əmtəə nişanının ekspertizası aparılmışdır. Onlardan 440 ədəd əmtəə nişanının qeydiyyatına (tam və ya qismən) dair imtina qərarları, 2253 ədəd əmtəə nişanı barəsində tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərtilə qeydiyyata alınması haqqında qərarlar tərtib edilərək Ümumdünya Əqli Mülkiyyət Təşkilatına göndərilmişdir. 2021-ci ildə yerli iddiaçılar tərəfindən beynəlxalq qeydiyyat üçün 16 ədəd iddia sənədi təqdim olunmuşdur. İddia sənədlərinin tələblərə uyğun doldurulması yoxlanılmış və Nazirlər Kabinetinin 27 may 2019-cu il tarixli 247 saylı qərarı ilə müəyyən olunmuş haqq ödənildikdən sonra həmin iddia sənədləri ÜƏMT-nin Beynəlxalq Bürosuna göndərilmişdir.

**Cədvəl 4**

| Beynəlxalq əmtəə nişanları üzrə iddia sənədlərinin sayı |
| --- |
| **3058**<br><br>(2021-ci ilin yanvar  ayının 1-ə olan məlumat)<br>Hesabat dövründə ekspertizası imtina ilə nəticələnmiş iddia sənədlərinin sayı –**440** (tam və ya qismən.<br><br>2020-2021-ci illərdə  Beynəlxalq Bürodan daxil olan bildirişlər üzrə yanvar  ayının 1-nə olan məlumat) |

**4.2. Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2021-ci ildə əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində normativ-hüquqi və informasiya bazasının təkmilləşdirilməsi, qüvvədə olan mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin, dublikatların, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmişdir.

Hesabat dövründə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avropa Patent İdarəsi, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent struktrurları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

İl ərzində sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və digər məsələlərlə bağlı Agentliyə 4909 ədəd məktub daxil olmuşdur.

## İXTİRALAR

2021-ci il ərzində müvafiq Dövlət reyestrində ixtiralara dair 119 ədəd patent qeydiyyata alınıb, onlardan 102 ədədi milli, 17 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur.



2021-ci ildə qeydiyyata alınmış əmtəə nişanlarından 12-si Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşür.

Aşağıdakı cədvəllərdə və diaqramlarda 2021-ci ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| BPT-nin bölməsi | | İxtiralara dair patentlərin sayı | |
|---|---|---|---|
| | | 2021 | |
| | | milli | xarici |
| A | İnsanın həyatı tələbatlarının təmin edilməsi | 8 | - |
| B | Müxtəlif texnoloji proseslər | 4 | - |
| C | Kimya və metallurgiya | 80 | 2 |
| D | Toxuma mallar və kağız | - | - |
| E | Tikinti, mədən işləri | 3 | 9 |
| F | Mexanika, işıqlandırma, isitmə, mühərriklər və nasoslar, silah və döyüş sürsatı, partlama işləri | 2 | - |
| G | Fizika | 4 | 4 |
| H | Elektrik | 1 | 2 |
| **Cəmi** | | **102** | **17** |




<table>
<tr><th rowspan="2">Ölkələr</th><th rowspan="2">Ölkənin kodu</th><th>İxtiralara dair patentlərin sayı</th></tr>
<tr><th>2021</th></tr>
<tr><td>Azərbaycan Respublikası</td><td>AZ</td><td>102</td></tr>
<tr><td>Böyük Britaniya</td><td>GB</td><td>3</td></tr>
<tr><td>İtaliya</td><td>İT</td><td>1</td></tr>
<tr><td>Türkiyə</td><td>TR</td><td>5</td></tr>
<tr><td>ABŞ</td><td>US</td><td>8</td></tr>
<tr><td colspan="2">Cəmi</td><td>119</td></tr>
</table>

## FAYDALI MODELLƏR

**Faydalı modellərə dair** 27 ədəd patent qeydiyyata alınıb, onlardan 21 ədədi milli, 6 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəl və diaqramda 2021-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.

| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2021 | |
| | milli | Xarici |
| A | 9 | - |
| B | 2 | 2 |
| E | 1 | 1 |
| F | 3 | - |
| G | 1 | 2 |
| H | 5 | 1 |
| Cəmi | 21 | 6 |




## SƏNAYE NÜMUNƏLƏRİ

**Sənaye nümunələrinə dair** 27 ədəd patent qeydiyyata alınıb, onlardan 15 ədədi milli, 12 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəllərdə və diaqramda 2021-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|
| | 2021 |
| 01 | 1 |
| 07 | 1 |
| 09 | 3 |
| 10 | 1 |
| 11 | 5 |
| 12 | 2 |
| 21 | 1 |
| 25 | 13 |

| Cəmi | 27 |
|---|---|




| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı |
|---|---|---|
| | | 2021 |
| Azərbaycan Respublikası | AZ | 15 |
| İsveçrə | CH | 1 |
| İtaliya | İT | 7 |
| Türkiyə | TR | 3 |
| Rusiya Federasiyası | RU | 1 |
| Cəmi | | 27 |



## ƏMTƏƏ NİŞANLARI

Hesabat dövründə müvafiq Dövlət reyestrində 2379 ədəd əmtəə nişanı qeydiyyata alınmışdır, onlardan 1453 ədədi milli, 926 ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur.




2021-ci ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.

| Ölkələr | Ölkənin kodu | Qeydiyyata alınmış əmtəə nişanlarının sayı |
|---|---|---|
| | | 2021 |
| Birləşmiş Ərəb Əmirlikləri | AE | 44 |
| Azərbaycan Respublikası | AZ | 1453 |
| Argentina | AR | 4 |
| Bosniya və Herseqovina | BA | - |
| Barbados | BB | 1 |
| Belqiya | BE | 1 |
| Bermud Adaları | BM | - |
| Baham Adaları | BS | 2 |
| Braziliya | BR | 1 |
| Belarusiya | BY | 1 |
| Kanada | CA | 4 |

| | | |
|---|---|---|
| İsveçrə | CH | 71 |
| Çin | CN | 56 |
| Kuba | CU | - |
| Kipr | CY | 6 |
| Almaniya | DE | 18 |
| Danimarka | DK | 13 |
| İspaniya | ES | 9 |
| Finland | FI | 17 |
| Fransa | FR | 13 |
| Böyük Britaniya | GB | 65 |
| Gürcüstan | GE | 5 |
| Xorvatiya | HR | 2 |
| İndoneziya | ID | 3 |
| İrlandiya | IE | 3 |
| Hindistan | IN | 15 |
| İran | IR | 6 |
| İtaliya | IT | 5 |
| İordaniya | JO | 1 |
| Yaponiya | JP | 42 |
| Koreya Respublikası | KR | 65 |
| Kayman Adaları | KY | 13 |
| Küveyt | KW | 6 |
| Livan | LB | 1 |
| Latviya | LV | 2 |
| Litva | LT | - |
| Lüksemburq | LU | 1 |
| Meksika | MX | 2 |
| Mavriki | MU | 2 |
| Malta | MT | 1 |
| Niderland | NL | 12 |
| Yeni Zelandiya | NZ | 1 |
| Oman | OM | 2 |
| Peru | PE | - |
| Polşa | PL | 4 |
| Rusiya Federasiyası | RU | 61 |
| Saudiyyə Ərəbistanı | SA | 6 |
| İsveç | SE | 3 |
| Singapur | SG | 8 |
| Syerra-Leone | SL | 2 |
| Tailand | TH | 2 |
| Türkiyə | TR | 50 |
| Tayvan | TW | 2 |
| Ukrayna | UA | 6 |
| ABŞ | US | 234 |
| Virgin Adaları | VG | 2 |
| Malaziya | MY | 2 |
| Avstriya | AT | 2 |
| Avstraliya | AU | 1 |
| Misir | EG | 1 |
| Şri-Lanka | LK | 6 |
| Bolqarıstan | BG | 12 |
| Qatar | QA | 4 |
| Özbəkistan | UZ | 1 |
| Makedoniya | MK | 1 |
| Cəmi | | 2379 |




Hesabat ilində patentlərin qüvvədə olma müddətinin uzadılması barədə 425 ədəd, şəhadətnamələrin qüvvədə olma müddətinin uzadılması barədə 1146 ədəd, əmtəə nişanlarına dair reyestr məlumatlarında dəyişiklik edilməsi barədə 547 ədəd və patentlərə dair reyestr məlumatlarında dəyişiklik edilməsi barədə 5 ədəd bildiriş qeydiyyata alınmışdır, 86 ədəd dublikat, 213 ədəd çıxarış verilmişdir və 561 ədəd bildiriş və məktublar göndərilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə 131 ədəd müqavilə qeydiyyata alınmışdır. Onlardan 121 ədədi əmtəə nişanları üzrə hüquqların verilməsinə, 1 ədədi əmtəə nişanları üzrə girov verilməsinə; 5 ədədi əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə, 4 ədədi Avrasiya patenti üzrə lisenziya verilməsinə aiddir.

Hesabat dövründə sənaye mülkiyyəti obyektlərinin hüquqi statusu və onlar haqqında sonrakı dəyişikliklər, müəlliflər, iddiaçılar və sahibləri haqqında, sənaye mülkiyyəti obyektlərinə dair hüquqların, onlardan istifadəyə dair lisenziya müqavilələrinin verilməsi və bu sahəyə dair reyestrə daxil edilmiş digər məlumatların “Sənaye Mülkiyyəti” rəsmi bülletenində dərc edilməsi ücün göndərilməsi təmin olunmuşdur.

**4.3. Müəllif hüquqları obyektlərinin qeydiyyatı.** 2021-ci il il ərzində 405 müəllifin 851 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 863 şəhadətnamə verilmişdir, o cümlədən “Elektron xidmət” bölməsi vasitəsi ilə 231 müəllifin 371 əsəri

qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 371 şəhadətnamə verilmiş, 9 müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2022-ci il 01 yanvar tarixinədək Agentlikdə bütövlükdə 14261 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə 419 müəllifin 787 əsəri qeydiyyatdan keçirilmiş və 797 şəhadətnamə verilmişdir.

2021-ci ildə "Mobil tətbiq proqramlarının müəllif hüququnun mühafizəsi obyekti kimi qeydiyyatının aparılması" istiqamət üzrə nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində mobil əlavələr indiyə qədər xidmət sahəsində mobil əlavənin layihəsi kimi qeydiyyatdan keçirilmişdir. Hazırda mobil tətbiq proqramlarının kompüter proqramı (mobil əlavə) kimi qeydiyyatdan keçirilməsi təmin edilmişdir.

**1996-2021-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə) (on-line qeydiyyat daxil olmaqla)**




**5. Kreativ sənaye.** Hesabat dövründə müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan kreativ sənayenin xüsusi çəkisinin müəyyən edilməsi üçün 2021-ci ilin 1 yanvarına olan vəziyyətə görə milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəricilər və dövlət büdcəsi rəqəmləri toplanmış və təhlil edilmişdir. Müəlliflik hüququ və əlaqəli hüquqlara əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən edildikdən sonra, bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda (ÜDM) xüsusi çəkisi hesablanmışdır. 2020-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4020,3 mln. manat təşkil etmişdir ki, bu da ümumi daxili məhsulun 5,3%-nə uyğun gəlir. Əqli Mülkiyyət Agentliyində aparılan təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı getdikcə artmaqdadır. Son 10 ildə ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə 3,5%-dən 2021-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,3%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələr 10 il ərzində 1,8%-dən 2,9%-ə çatmışdır.

Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir.

| | |
|---|---|
| - Əsas müəllif hüququ industriyasının sahələri, istehsalları və digər bölmələri | – 2156,6 mln. manat (2,9%) |
| - Qarşılıqlı asılılıq münasibətlərində olan sahələr | – 706,8 mln. manat (0,9%) |
| - Müəllif hüququna qismən əsaslanan sahələr | – 329,7 mln. manat (0,4%) |
| - İndustriyanın köməkçi sahələri | – 827,2 mln. manat (1,1%) |
| Cəmı: | 4020,3 mln. manat (5,3%) |

**Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı**




Cədvəldə göstərilən rəqəmlər müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləri olaraq, ölkə iqtisadiyyatının innovasiyalara əsaslanan meyarlar üzərində inkişaf etməsinin təzahürüdür.

## 6. Əqli mülkiyyət hüquqlarının təminatı, piratçılığa qarşı mübarizə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.

6.1. Əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı məsələlər 2021-ci ildə Agentliyin fəaliyyətində əsas istiqamətlərdən olmuş, əqli mülkiyyət hüquqlarının qorunması sahəsində digər dövlət qurumları ilə əlaqəli tədbirlər davam etdirilmiş, piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində bir sıra çap məhsullarına nəzarət markalarının verilməsi təmin edilmişdir. Hesabat ilində müxtəlif təşkilatların müraciətləri əsasında mülki dövriyyədə istifadə olunan çap məhsullarına yapışdırmaq üçün 352 100 (üç yüz əlli iki min yüz) ədəd nəzarət markası hazırlanaraq təhvil verilmişdir.

Nəzarət markalarının tətbiqi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 iyun 2014-cü il tarixli 191 nömrəli Qərarı ilə təsdiq olunmuş "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir. Əqli Mülkiyyət Agentliyinin www.copat.gov.az saytının “Dövlət xidmətləri” bölməsinə və ya www.e-qov.az Elektron Hökumət portalına müraciət edərək onlayn qaydada nəzarət markalarını əldə etmək imkanı yaradılmışdır.

Piratçılıqla mübarizə tədbirləri çərçivəsində il ərzində yayım təşkilatları ilə intensiv kommunikasiya qurulmuş, xüsusilə bu sahədə AzTV QSC və İTV ilə əməkdaşlıq edilmiş, ölkəmizdə fəaliyyət göstərən milli televiziya kanallarında yayımlanan xarici serialların lisenziyalı yayımına nail olunmuşdur. Yayım operatorlarının (kabel və İPTV) paketlərində retranslyasiya olunan xarici kanalların pirat yayımı ilə mübarizə çərçivəsində müxtəlif formatlı görüşlərdə və tədbirlərdə müəllif hüquqları sahəsində mövcud vəziyyət təhlil olunmuş, zəruri tövsiyələr verilmişdir.

2021-ci ildə pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpasına kömək göstərilməsi ilə bağlı Agentliyə 8 yazılı müraciət daxil olmuşdur. Bunlar əsasən elmi və ədəbi əsərlər və musiqi sahəsini əhatə edir. Qeyd edilən müraciətlər Agentlik tərəfindən müəllif-hüquq qanunvericiliyinin tələbləri baxımından araşdırılmış, müvafiq tədbirlər görülərək, bir qismi Agentliyin səlahiyyətləri çərçivəsində həll edilmiş, qalanları aidiyyəti üzrə qurumlara göndərilmişdir. Daxil olmuş müraciətlərin əksəriyyəti müsbət həll edilmişdir.

2021-ci il ərzində Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 255 müraciət daxil olmuşdur. Ötən dövr üzrə daxil olmuş və yekunlaşdırılmış işlər də nəzərə alınmaqla, hesabat dövründə 226 işə baxılmış, 110 iş üzrə ərizənin təmin edilməsi, 43 iş üzrə ərizənin qismən təmin edilməsi, 66 iş üzrə, o cümlədən əmtəə nişanına dair 62, ixtiraya dair 2, faydalı modelə dair 2 ərizənin rədd edilməsi, 7 ərizənin baxılmamış saxlanması barədə qərarlar qəbul edilmişdir.

Proqram təminatı sahəsində həyata keçirilən tədbirlər çərçivəsində ABŞ-ın “Microsoft”, “Oracle” və “Trimble Tekla” şirkətləri ilə əməkdaşlıq davam etdirilmiş, proqram təminatı məhsullarının qorunması üçün müvafiq işlər görülmüş, həmin ölkənin Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramı (CLDP) ilə birlikdə Azərbaycanda ƏM sahəsində ictimai məlumatlılığın artırılması ilə bağlı maarifləndirmə tədbirləri təşkil edilmiş, gələcək əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. Bununla yanaşı, Əqli Mülkiyyət Agentliyi tərəfindən CLDP ilə əməkdaşlıqda Azərbaycanda innovativ startapların həyat qabiliyyətliliyinin və risklərin qiymətləndirilməsi üzrə layihənin hazırlanması və həyata keçirilməsi ilə bağlı işlər aparılır.

Əqli Mülkiyyət Agentliyinin öz Nizamnaməsinə uyğun olaraq 80-dən çox vəzifə və hüquqları sırasında müvafiq dövlət və məhkəmə orqanlarının sorğusu əsasında ekspert rəyləri hazırlamaq, məhkəmədə və digər səlahiyyətli orqanlar tərəfindən keçirilən tədbirlərdə ekspert və nümayəndə qismində iştirak etmək kimi vəzifələri vardır. Agentlik bir çox hallarda müstəqil tələb irəli sürməyən üçüncü şəxs qismində əqli mülkiyyət hüquqları ilə bağlı aparılan məhkəmə işlərinə cəlb olunur. 2021-ci il ərzində Agentliyin nümayəndələri əqli mülkiyyət obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 54 iş üzrə (onlardan 46-sənaye mülkiyyəti obyektləri, 8-i isə müəllif hüquqları ilə bağlı) 160-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekspert rəyi hazırlanmış, məhkəməyə təqdim edilmiş,  maarifləndirmə tədbirləri keçirilmişdir.

Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində buraxılan kitablara, not yazılarına, dövri nəşrlərə, audiovizual əsərlərə və audio-videoyazılara müvafiq olaraq İSBN, İSMN, İSSN, İSAN, İSRC beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi ilə bağlı gələcəkdə yaradılacaq Milli mərkəzlərin fəaliyyətini koordinasiya və təmin etmək məqsədi ilə görülən işlər davam etdirilmişdir. Dövri nəşrlər üçün (jurnal, qəzet və s.) beynəlxalq nömrələmə sistemi olan İSSN (Beynəlxalq Standart Seriya Nömrəsi) üzrə ölkəmizdə Milli Mərkəz funksiyalarının yerinə yetirilməsinin təmin edilməsi məqsədilə “Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi” İctimai Birliyi ilə aparılan işin nəticəsi olaraq Agentlikdə qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi təmin olunmuşdur.

Qeyd olunan məsələlər çərçivəsində Beynəlxalq Nizami Mərkəzinin (BNM) Türkiyədə nəşr etdirməyi planlaşdırdığı Nizami Gəncəvi əsərlərinin illüstrativ şəkildə

təqdim olunduğu xüsusi kitab üçün bütün hüquqların BNM-də qalması şərti ilə İSBN beynəlxalq standart eyniləşdirmə nömrəsinin verilməsi təmin edilmişdir.

Agentliyin 960 nömrəli “Çağrı Mərkəzi” və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəllif-hüquq məsələləri üzrə 820-yə yaxın müraciət və sorğuya cavab verilmiş, sənaye mülkiyyəti məsələləri ilə bağlı isə “Çağrı Mərkəzi” vasitəsilə edilmiş 17115-dən artıq telefon zəngləri cavablandırılmış və qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində hüquqi köməklik göstərilmişdir.




Bununla yanaşı, Agentliyə müvafiq dövlət və məhkəmə orqanlarından, eləcə də fiziki və ya hüquqi şəxslərdən 2021-ci ildə daxil olmuş sorğular, şikayət ərizələri əsasında ekspert rəyləri hazırlanmış, pozulmuş hüquqların bərpası ilə bağlı işlər görülmüşdür.

Müvafiq dövlət qurumları ilə birgə həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə 2021-ci ildə piratçılığın səviyyəsi aşağı düşmüş, o cümlədən kitab

satışı sahəsində 61%-dən 20%-ə, audio-video məhsul bazarında 90%-dən 57%-ə, proqram təminatında 96%-dən 71%-ə düşmüşdür.




6.2. Əqli mülkiyyət hüquqlarının müdafiəsinin səmərəli təminatı cəmiyyətdə əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasını, müəlliflərin, hüquq sahibləri və istifadəçilərin hüquqlarına hörmətlə yanaşılmasını, nəticə etibarilə cəmiyyətin maarifləndirilməsi və məlumatlandırılması tələblərini zəruri edir.

Hesabat ilində hüquqi maarifləndirilmə məqsədi ilə Agentliyin təşkilatçılığı və iştirakı ilə bir sıra tədbirlər həyata keçirilmiş, Agentliyin Aparatının və struktur bölmələrinin əməkdaşları onlayn və hibrid formatda 30-dan çox tədbirdə iştirak etmişlər. İnformasiya, maarfləndirici və təbliğat xarakterli 100-dən artıq məqalə və yazıların KİV-lərdə dərc olunmasına dəstək verilmiş, TV və radio kanallarında əqli mülkiyyət sahəsinə dair 20-dan çox veriliş və süjetlər göstərilmişdir. Eyni zamanda Agentliyin əməkdaşları iştirak etdikləri yerli və beynəlxalq tədbirlərdə əqli mülkiyyət məsələlərinə dair 20-dən artıq təqdimat və çıxışlar etmişlər.

Bununla yanaşı, Agentliyin tabeliyində olan qurumlarda əqli mülkiyyət sahəsində maarifləndirmə işlərinin gücləndirilməsi və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması istiqamətində aparılan işlər gücləndirilmiş, bu məqsədlə Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində aşağıdakı istiqamətlər üzrə tədbirlər həyata keçirilmişdir:

- "Əqli mülkiyyətinin əsasları" təlim kursu üçün proqram tərtib edilmişdir. Kursda əqli mülkiyyət obyektləri ilə bağlı əsas anlayışlar, texnoloji işləmələrin patentlə qorunması üsulları verilir, eyni zamanda innovativ şirkətlər üçün əqli mülkiyyətin rolu,

əqli mülkiyyət hüquqlarını əldə etməyin üstünlükləri, ölkə daxilində və xaricində əqli mülkiyyətin qorunmasının şərtləri və prinsipləri barədə faydalı məlumatlar verilir;

- Mərkəzdə çalışan mütəxəssislərin peşə hazırlığının artırılması sahəsində təlim kurslarının proqramlarının layihələri hazırlanmış və hazırda müzakirəsi davam etirilir;
- "Əmtəə nişanları və sənaye nümunələrinin hüquqi mühafizəsi" kursu tərtib edilmişdir. Bu kursda nişanların (işarələrin) fonetik, qrafik və semantik oxşarlıq əlamətləri; fərqlənmə qabiliyyətinə malik olmayan əmtəə nişanları; əmtəələrin və xidmətlərin beynəlxalq təsnifatı, imtina qərarına qarşı etirazlara Sənaye mülkiyyəti sahəsində mübahisələrə baxan Apelyasiya Şurasında baxılması və s. məsələlər tədris edilir;
- "İxtiraların, faydalı modellərin və sənaye nümunələrin hüquqi mühafizəsi" ixtisasartırma kurslarının proqramları hazırlanmışdır**.** Seçilmiş mövzular arasında ixtira, faydalı model və sənaye nümunələrin ilkin ekspertizasının qayda və şərtləri, qurğu və usulun əlamətləri, maddənin əlamətləri, sənaye nümunəsinin milli, regional və beynəlxalq sistemlər vasitəsilə mühafizəsi, PCT çərçivəsində patentləşdirmənin qaydası və şərtləri, patentləşdirilmiş ixtiraların tətbiqi ilə bağlı problemlər, sənaye mülkiyyəti sahəsində mübahisələr baxan Apelyasiya Şurasının qərarların icrası və s. məsələlər tədris edilir;

Həmçinin maarifləndirmə xarakterli tədbirlərin keçirilməsi məqsədilə dəstək xidməti prinsipinə əsaslanan və geniş mövzuları əhatə edən davamlı seminarların onlayn təşkili üzrə tədbirlər görülmüşdür. Geniş auditoriyaya (risk investorları, texnologiya sahibkarları, ixtiraçılar, alimlər, müəllimlər, aspirantlar və universitet tələbələri, öz işlərində əqli mülkiyyətin yaradılması və idarə olunması ilə məşğul olan və bu mövzu ilə maraqlanan hər kəs) yönəldilmiş seminarlar aşağıda göstərilən mövzuları əhatə edir:

- Əqli mülkiyyət və süni intellekt.
- Əqli mülkiyyət və elektron ticarət.
- Texnologiya transferinin və kommersiyalaşdırmanın əsasları: beynəlxalq təcrübə və onun adaptasiyası.

Bunlarla yanaşı, əmtəə nişanları və coğrafi göstəricilərin ekspertizası istiqaməti üzrə yeni fəaliyyətə başlamış işçilər üçün iddia edilmiş əmtəə nişanların ekspertizasının aparılması qaydalarına dair təlim kursu keçirilmişdir.

Əqli Mülkiyyət Agentliyi tərəfindən kiçik və orta sahibkarlıq və əqli mülkiyyət ilə maraqlanan şəxslər üçün "Əqli mülkiyyət" elmi – praktiki jurnalı onlayn dərc edilir. Jurnalda əqli mülkiyyətlə bağlı elmi araşdırmalar, onların sosial və iqtisadi səmərəliliyi, əqli fəaliyyət nəticələrinin kommersiyalaşdırılması, innovasiya, əqli mülkiyyətin innovativ inkişaf konteksti kimi spesifik materiallarla yanaşı, həmçinin geniş oxucu kütləsinə hesablanan tariximizə, erməni plagiatçılığına, mədəni irsimizə, vətəndaşlarda əqli mülkiyyət mədəniyyətinin və əqli mülkiyyət hüquqlarına hörmətin formalaşdırılmasına həsr olunan populyar və maraqlı mövzular da işıqlandırılır. Məqalələr Azərbaycan və rus dillərində dərc edilir.

Maarifləndirmə işlərinə dəstək tədbirləri, oxuculara göstərilən o cümlədən onlayn xidmətlər Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının (RETK) fəaliyyətində aparıcı istiqamətlərindən olmuşdur. RETK ölkəmizin kitabxanaları arasında özünəməxsus yer tutur və onun fondu əsasən neft, elmi - sahəvi, patent və digər ədəbiyyatlarla zəngindir.

2021-ci il ərzində RETK-nın ümumi fondunun sayı 13.913.145 çap nüsxəsi olmuşdur. Bunlardan:

Kitab və broşurlar: 291222 çap nüsxəsi;

Dövrü nəşrlər: 577940 çap nüsxəsi;

Xarici dildə olan kitablar: 344 çap nüsxəsi;
xarici dildə olan jurnallar:108527 çap nüsxəsi;
Aftoreferatlar: 9359 çap nüsxəsi;
ETİ xarakterli materiallar: 634294 çap nüsxəsi
RPF: 12.289459 çap nüsxəsi təşkil edir.

RETK tərəfindən 2021-ci il ərzində 664 çap nüsxəsi ədəbiyyat alınmışdır. O cümlədən:

Azərbaycan dilində 72 adda 89 çap nüsxəsi;
Rus dilində 73 adda 101 çap nüsxəsi;
Digər xarici dillərdə 11 adda 15 çap nüsxəsi;
Avtoreferatlar 287 çap nüsxəsi. Bu aftoreferatlardan:
Qeyri ixtisas üzrə 83 çap nüsxəsi;
Jurnallar 15 adda 172 çap nüsxəsi.

2021-ci ildə RETK-nın əsas fondlarından biri olan patent fondunun bərpa edilməsi və zənginləşdirilməsi, patent lisenziya işinin səmərəliliyinin yüksəldilməsi, patent sənədlərinin geniş təbliği, ixtiraçılıq yaradıcılığının dəstəklənməsi istiqamətlərində işlər görülmüşdür. Hazırda fondda ədəbiyyatların seçilməsi, komplektləşdirilməsi, ardıcıl illərə və ölkələrə görə ayrılması işləri aparılır. Bu işin əhəmiyyətini nəzərə alınaraq, Əqli Mülkiyyət Agenetliyinin İdarə Heyyətinin sədrinin 09.12.2021-ci il 60 nömrəli əmri ilə Milli Patent fondunun bərpa edilməsi ilə bağlı işçi qrupu yaradılmışdır.

2021-ci il ərzində 84 çap nüsxəsi kitab alınmış onlardan 39-u PDF formatında müəlliflər tərəfindən təmənnasız olaraq kitabxanaya təqdim olunmuş və Azərbaycan Respublikası Prezidenti yanında Ali Atestasiya Kommisiyasına təqdim etmək üçün arayışlar verilmişdir.

İl ərzində RETK-na daxil olan bütün ədəbiyyatlar (kitablar, jurnallar, patent ədəbiyyatı, braşuralar, məlumat materialları və s. ) müvafiq qaydada işlənərək fonda təhvil verilmişdir. 2021-ci il ərzində cəmi 252 çap nüsxəsi ədəbiyyat işlənilmişdir.

Ümumiyyətlə, kitabxanaya daxil olan kitabların həm texniki qaydada işlənməsi, UOT-a əsasən şöbələrə ayrılması, indeksləşdirilməsi, müəllif işarəsinin verilməsi, işlənmiş kitablara İRBİS-64 AKİS modulunda kartoçkalar yazılması təmin edilmişdir.

Kitabxananın əsas fondu neft sahəsi ilə bağlı olduğu, həmçinin fondda neft sahəsinə aid qədim tarixə malik olan ədəbiyyatlar olduğuna görə bu fond ayrı formalaşdırılmışdır.

İngilis, alman, fransız, və s. dillərdə toplanan 108 adda jurnallar illər və nömrələr üzrə bölünmüş, həmçinin ingilis dilində 70 adda 17000 çap nüsxəsi jurnallar kitabxana qaydasında sistemləşdirilmişdir.

"Neft üfüqlərinin mənimsənilməsi", "Ekoloji mozaika", "Azərbaycanın elektrik enerjisi", "Aqrar təsərrüfatın modernləşdirilməsi", "Azərbaycan ərazisində Alban kilsələrinin memarlığı", "Riyaziyyatın sehri" mövzularında onlayn kitab sərgisi təşkil olunmuşdur.

Kitabxana proseslərinin avtomatlaşdırılması üçün 2021-ci ildə İRBİS-64 elektron AKİS-lərdə də həm retro, həm də kitabxana fonduna daxil olan yeni ədəbiyyatların elektron kartoçkaları hazırlanmış, elektron kataloq proqramında 64 çap nüsxə retro ədəbiyyat, 135 çap nüsxəsi yeni ədəbiyyatın kartoçkası qeydiyyatdan keçirilmişdir.

Kitabxananın yerləşdiyi binada bərpa-təmir işlərinin aparılması zərurəti ilə əlaqədar Azərbaycan Respublikası FHN-nin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi "Azərdövlətlayihə" Azərbaycan Dövlət Baş Layihə İnstitutunun mütəxəssislərinin Bakı şəhəri Nəsimi rayonu Mərdanov qardaşları-124 ünvanında yerləşən kitabxananın binasına keçirilmiş baxış və rəyinə əsasən 11 oktyabr 2021-ci il tarixində açıq tender keçirilmiş və tenderin qalibi olan "AR GROUP İNŞAAT"

M.M.Cəmiyyəti tərəfindən təmir və bərpa işlərinə başlanmış və hazırda işlər davam etdirilir.

### 7. Mədəni irsin qorunması və erməni plagiatina qarşı mübarizə.

Hesabat ilində Azərbaycan xalqının mədəni irsinin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri Agentliyin fəaliyyətində prioritet istiqamətlərdən olmuş, xalqımıza məxsus olan müəllif əsərlərinin, ənənəvi mədəni (folklor) nümunələrin, ənənəvi biliklərinin və digər qeyri-maddi mədəni irs nümunələrinin əsrlər boyu ermənilər tərəfindən oğurlanması, mənimsənilməsi və erməni nümunələri kimi təqdim olunması hallarına qarşı mütəmadi olaraq tədbirlər görülmüşdür.

Azərbaycan folkloru nümunələrinin hüquqi qorunmasını təmin edən təsirli mexanizmlərin yaradılması istiqamətində görülən işlər çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 233 nömrəli qərarı ilə “Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması Qaydası” təsdiq olunmuşdur.

Yeni qayda Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin hüquqi qorunması və qeydiyyatı üzrə müvafiq hüquqi prosedurları müəyyən edir. Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin qeydiyyata alınması onların hüquqi qorunması məqsədini daşıyır və bu Qaydaya uyğun olaraq əqli mülkiyyət obyektləri kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində dövlət qeydiyyatına alınır. Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin əqli mülkiyyətin xüsusi növləri kimi hüquqi qorunması Agentlik tərəfindən həyata keçirilir. Azərbaycan folkloru nümunələrindən (ənənəvi mədəni nümunələrdən) və Azərbaycanın ənənəvi biliklərindən ölkəmizdə və xaricdə istifadə olunarkən bəzi hallarda həmin nümunələrin mənbəyi, mənsub olduğu xalqın və ya yarandığı coğrafi yerin adı dəqiq göstərilmir, yaxud yanlış göstərilir. Bu Qaydanın tətbiq edilməsi ilə Azərbaycan folkloru nümunələrinin hüquqi qorunmasını təmin edən təsirli qorunma və müdafiə mexanizmlərinin yaradılması mümkün olacaqdır.

Nazirlər Kabinetinin həmin qərarı ilə Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatına alınması barədə Şəhadətnamənin nümunəsi” də təsdiq edilmişdir. Yeni qaydaya əsasən, Azərbaycan folkloru nümunələri (ənənəvi mədəni nümunələr) və Azərbaycanın ənənəvi bilikləri dövlət qeydiyyatına alındıqda, Əqli Mülkiyyət Agentliyi tərəfindən “Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycanın ənənəvi biliklərinin dövlət qeydiyyatı haqqında Şəhadətnamə” tərtib ediləcək. Şəhadətnamənin depozitarisi qismində Əqli Mülkiyyət Agentliyi çıxış edəcək.

2021-ci aprelin 26-da Əqli Mülkiyyət Agentliyi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının dəstəyi ilə 23 Aprel - “Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” və 26 Aprel - “Beynəlxalq Əqli Mülkiyyət Günü”nə həsr olunmuş “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında” mövzusunda vebinar-konfrans keçirilmişdir. Vebinarı giriş sözü ilə Agentliyin İdarə Heyətinin sədri açmış, eyni zamanda “Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında” məruzə etmişdir. Sonra Təhsil naziri Emin Əmrullayev, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov

çıxış etmişlər. Vebinarda həmçinin AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun direktoru Kərim Şükürovun "İşğaldan azad edilmiş sənət abidələri, daşınan və daşınmaz tarix və mədəniyyət abidələrinə qarşı erməni vandalizmi" və Əqli Mülkiyyət Agentliyinin eksperti Elşad Əlilinin "Qarabağ xristian abidələri barədə" məruzələri dinlənilmişdir.

5 aprel tarixində Agentliyin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığı Azərbaycanın əqli mülkiyyətidir və bəşəriyyətin mədəni sərvətidir" mövzusunda vebinar keçirilmişdir. Vebinar Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 5 yanvar tarixli 2408 nömrəli Sərəncamı ilə 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilməsi ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində təşkil olunmuşdur.

Erməni plagiatının ifşa edilməsi çərçivəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq, "Azərbaycan" qəzetinin 2021-ci il 23 aprel tarixli nömrəsində Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin "Erməni miflərinin dağıldığı, həqiqət və ədalətin zəfər çaldığı tarixi dövr" məqaləsi dərc olunmuş və geniş rezonans doğurmuşdur.

11 və 20 oktyabr 2021-ci il tarixlərində Agentliyin İdarə Heyətinin sədrinin "Trend" İnformasiya Agentliyinə verdiyi geniş müsahibələrində ermənilərin tarixən etdiyi saxtakarlıqlar və plagiat elmi dəlil və sübutlarla təkzib edilmişdir. Hər iki müsahibə rus dilində Trend.az və Day.az internet resurslarında, həmçinin Agentliyin rəsmi saytında yerləşdirilmişdır.

Hesabat ilində erməni saxtakarlıqlarını ifşa edən tədbirlərin davamı olaraq, qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlığının və uydurmalarını ifşa edən "Qafqaz Albaniyası, onun sakinləri və işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlər" (azərbaycan və rus dillərində), "Хайи-армяне, стремясь утвердить свое место среди исторических народов, не брезгуют ревизией текста Священного Писания и Термин "Армения", будь то топоним или этноним, не имеет никакого отношения к нынешним армянам и присвоен ими" kitabları hazırlanaraq buraxılmış, həmçinin "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Армянский геноцид" или армянский террор?", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" və s. kitabçalar müxtəlif dillərdə təkrar nəşr edilmişdir.

Ənənəvi olaraq, 23 Aprel – Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü münasibəti ilə UNESCO kitabları və müəlliflik hüququnu təbliğ etmək üçün beynəlxalq ictimaiyyətə müraciət ünvanlayır. UNESCO belə müraciətlərlə yaradıcılığın, mədəni müxtəlifliyin və bütün fəaliyyət sahələrində biliklərə bərabərhüquqlu əlçatımlığın tərəfdarı kimi çıxış edir, kitab işinin və qiraətin təşviqinə kömək edir. Kitablara həsr olunan müraciət Agentlik tərəfindən azərbaycan dilinə tərcümə olunaraq yayılmışdır.

**8. Beynəlxalq əməkdaşlıq.** COVİD-19 pandemiyasının beynəlxalq əlaqələr sisteminə mənfi təsirlərinə baxmayaraq, Agentlik ölkəmizin əqli mülkiyyət sahəsində beynəlxalq mübadilə və əməkdaşlıq üzrə öhdəliklərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyətini, o cümlədən müasir kommunikasiya vasitələrinin verdiyi imkanlardan bəhrələnərək, çoxtərəfli və ikitərəfli müstəvidə davam etdirmiş, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avrasiya Patent Təşkilatı (APT), Ümumdünya Ticarət Təşkilatı, həmçinin Avropa İttifaqı (Aİ) və Müstəqil Dövlətlər Birliyinin (MDB)

aidiyyəti bölmələri, eləcə də bir sıra ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirmişdir.

Əqli mülkiyyətin iki qolu olan müəlliflik hüququ və sənaye mülkiyyəti hüquqları və onlarla əlaqəli digər sahələr üzrə beynəlxalq və regional statuslu layihə və tədbirlərin reallaşdırılması məqsədilə Agentlik tərəfdaşları ilə təmasları davam etdirmiş, əməkdaşlığın hüquqi bazasının genişləndirilməsi, mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün beynəlxalq təcrübə mübadiləsini təşviq etmişdir. İlk növbədə, ÜƏMT və bu təşkilat çərçivəsində müxtəlif ölkələrlə yaradılmış faydalı əməkdaşlıq davam etdirilmiş, ölkəmizin mənafe və maraqlarının təmin edilməsi məqsədilə təşkilatın Baş Assambleya, Daimi və Hökumətlərarası Komitələrində keçirilən tədbirlərdə zəruri addımlar atılmışdır.

2021-ci ilin 4-8 oktyabr tarixlərində İsveçrənin Cenevrə şəhərində ÜƏMT üzv-dövlətlərinin Assambleyalarının 62-ci sessiyası keçirilmişdir. COVID-19 pandemiyası ilə əlaqədar hibrid rejimdə keçirilən tədbirə ölkəmizi təmsil edən heyət ikili formada: Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinə daxil olan təşkilatın əməkdaşları onlayn şəkildə, Azərbaycan Respublikasının Cenevrədəki BMT və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin əməkdaşları isə fiziki olaraq qoşulmuşdur.

Assambleyaların açılışında ÜƏMT-nın Baş direktoru Daren Tanq güclü maliyyə vəziyyətini qorumağı və əməkdaşlarının çevikliyi və peşəkarlığı sayəsində pandemiyaya qarşı bu günə qədər tab gətirməyi bacaran təşkilatın gələcəyi ilə bağlı baxışlarını açıqladı. Qlobal İnnovasiya İndeksinə istinad edərək, 2020-ci ildə əqli mülkiyyət hüquqlarının qorunmasına dair iddia sənədləri, elmi-tədqiqat xərcləri, təcrübi-konstruktor işləri və vençur kapitalının artımını vurğulayıb, innovasiya və yaradıcılıq sayəsində COVID-19 pandemiyasının dəf ediləcəyinə və ədalətli, inkluziv və dayanıqlı inkişafa qayıdılacağına inamını ifadə etdi.

Baş Assambleyanın plenar iclasına xüsusi platforma vasitəsilə qoşularaq çıxış edən Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri əqli mülkiyyət institutunun uğurlarının ÜƏMT-nın əsaslandığı ardıcıllıq, sabitlik, eyni zamanda, mobilliyi ilə şərtləndirildiyini qeyd edərək vurğulayıb ki, bu dəyərlər, ÜƏMT-nın qarşıdakı beş il üçün Ortamüddətli Strateji Planında göstərildiyi kimi, əqli mülkiyyətin hər kəsin xeyrinə innovasiya və yaradıcılığı dəstəkləyən bir dünyanın yaradılmasına töhfə verəcəkdir. İdarə Heyətinin sədri Azərbaycanın ÜƏMT ilə sıx əməkdaşlıq etdiyini, əqli mülkiyyət sahəsi üzrə prioritet məsələlərə dair mütəmadi birgə memorandumların imzalanmasını, onların icrası üçün fəaliyyət planlarının qəbul edilməsini diqqətə çatdıraraq, Agentliyin başlıca məqsədinin ölkə rəhbərliyi tərəfindən həyata keçirilən iqtisadi islahatlara dəstək vermək, innovasiyaların tətbiqini təşviq etmək və iqtisadi artımın fəal aktoruna çevrilməkdən ibarət olduğunu bildirmişdir. Onun sözlərinə görə, bu istiqamətdə fəaliyyətlər əqli mülkiyyətin institusional strukturunun dəyişməsi, hüquqların qorunmasının rəqəmsallaşdırılmasının tətbiqi, şəffaflıq və fəaliyyətin intensivləşdirilməsi üzrə tətbiqlərin yaradılması, universitetlərin ekspertizaya dair bazalara əlçatanlığı, lokal əqli mülkiyyət ofislərinin dəstəklənməsi və Agentliyin nəzdində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına gətirmişdir. Daha sonra bildirilib ki, ölkədə yeni əqli mülkiyyət obyektlərini nəzərə alan sənaye mülkiyyəti, eləcə də ənənəvi biliklərə dair müddəaları ehtiva edən müəlliflik hüquqları üzrə qanunların yeni redaksiyaları qüvvəyə minib, həmçinin ənənəvi biliklərin və ənənəvi mədəni nümunələrin qorunmasını, onların qeydiyyatı və mühafizə sənədlərinin verilməsini təmin edən tədbirlər görülüb. Nəticədə iddia ərizələrinin baxılma müddəti sürətlənib, ixtiraçılıq və patent aktivliyində artım müşahidə edilir, kreativ sənayenin ölkənin ÜDM-unda payı artıb. Çıxışında 44 günlük müharibənin nəticələrinə toxunan natiq işğaldan azad edilmiş və tamamilə dağıdılmış vəziyyətdə olan Qarabağ torpaqlarında innovativ dəyişikliklərin

təşviq edilməsinə və burada “ağıllı şəhər” və “ağıllı kəndlər”in yaradılması üçün aparılan işlərə Agentliyin dəstək verdiyini bildirib.

Baş Assambleya çərçivəsində ÜƏMT-nın assambleyalarının vəzifəli şəxslərinin seçkiləri zamanı Agentliyin İdarə Heyətinin sədrinin namizədliyi təşkilatın Müəlliflik hüququna dair Müqavilənin Assambleyasının sədri vəzifəsinə təklif olunub. Namizədliyinin irəli sürülməsi və ÜƏMT Baş Assambleyası tərəfindən dəstəklənməsində əsas amil kimi K.İmanovun əqli mülkiyyət, xüsusən də müəlliflik hüququ sahəsinin tanınmış beynəlxalq eksperti olması göstərilib. Azərbaycan nümayəndəsinin belə mötəbər vəzifəyə layiq görülməsi dövlət başçısının uğurlu siyasəti nəticəsində ölkəmizin beynəlxalq nüfuzunun artmasının növbəti göstəricisidir.

Sessiya çərçivəsində keçirilən ÜƏMT komitələrinin vəzifəli şəxslərinin seçkiləri zamanı ölkəmiz yenidən bu təşkilatın fəaliyyətinin inzibati, maliyyə, o cümlədən büdcə xərclərinin müəyyən edilməsində xüsusi əhəmiyyəti olan, Təşkilatın Baş Assambleyasının gündəliyinin, onun Konfransının proqram və büdcəsinin layihələrini hazırlayan, Baş direktorun seçilməsi üçün namizədi Baş Assambleyaya təqdim edən Koordinasiya Komitəsinin və təşkilatın maliyyə xərclərinin audit və nəzarətini həyata keçirən, fəaliyyətinin nəticələri və maliyyə vəziyyətinin icmalını hazırlayan, büdcəsini planlaşdıran və tərtib edən Proqram və Büdcə Komitəsinin üzvü seçilmişdir.

Hesabat ilində Agentliyin nümayəndələri ÜƏMT bölmələrinin, o cümlədən təşkilatın Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Patent Hüququ üzrə Daimi Komitəsinin, Proqram və Büdcə Komitəsinin, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin hibrid reyimdə keçirilən sessiyalarında onlayn qaydada iştirak etmiş, müzakirə edilən sənədlərin müddəalarının razılaşdırılmasına öz töhfələrini vermişlər.

ÜƏMT-nın müvafiq qurumları ilə bu təşkilatla əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən Agentliyin uzunmüddətli Strategiyasının hazırlanması, onun nəzdində yaradılmış Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin və Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin fəaliyyətlərinin ÜƏMT tərəfindən dəstəklənməsi, ikitərəfli Tədbirlər Planının bəndlərinin razılaşdırılması, patent analitikası sisteminin inkişafı, süni intellekt və onun tətbiqi məsələlərinin müzakirələri işçi qaydada davam etdirilmişdir.

Hesabat ilində Agentliyin nümayəndələri ÜƏMT-nın keçirdiyi bir sıra tədbirlərdə iştirak etmişlər, o cümlədən İdarə Heyətinin sədri 22 iyun tarixində təşkilatın Baş direktoru D. Tanqın bir sıra dövlətlərin əqli mülkiyyət qurumlarının rəhbərləri ilə video görüşündə çıxış etmişdir. Tədbirdə ÜƏMT tərəfindən 2022-2026-cı illər üçün hazırlanmış Orta Müddətli Strateji Plan və üzv-dövlətlərin təklifləri nəticəsində hazırlanan 2022-2023-cü illər üçün Proqram və Büdcə müzakirə olunmuşdur.

Bu sənədlərin ÜƏMT-nın Baş direktoru tərəfindən təqdim olunan inkişaf proqramının tərkib hissəsi olduğunu qeyd edilmiş, onların uğurunu şərtləndirən amillərdən biri kimi milli əqli mülkiyyət təşkilatları ilə sıx əməkdaşlığın davam etməsində gördüyü bildirilmişdir. Azərbaycanın ÜƏMT ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyi və ikitərəfli Anlaşma Memorandumunun, o cümlədən 2018-2021-ci illər üçün Fəaliyyət Planının ölkəmizin əqli mülkiyyət sisteminin inkişafına danılmaz töhfə verdiyini bildirilmiş, ÜƏMT-nın məqsəd və mandatının həyata keçirilməsində D.Tanqın göstərdiyi səylərə Azərbaycanın dəstəyini ifadə edərək, qarşıdakı illər üçün yeni Fəaliyyət Planının hazırlanmasında maraqlı olduğu vurğulanmışdır.

Agentliyin rəhbəri müasir texnologiyaların əqli mülkiyyət landşaftına getdikcə daha çox təsir edəcəyini qeyd edərək, 2020-ci il 21 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti və Dünya İqtisadi Forumunun prezidenti arasında imzalanmış niyyət protokolu və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Fərmanı əsasında “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya

Mərkəzi"nin yaradıldığını və cari ilin 1 aprel tarixindən fəaliyyətə başladığını diqqətə çatdırıb. O bildirib ki, Agentlik bu Mərkəzin fəaliyyətində iştirak edir, İdarə Heyətinin sədr müavini Mərkəzin Müşahidə Şurasının üzvüdür və Agentliyin vəzifəsi IV sənaye inqilabının nailiyyətlərinin həyata keçirilməsi strategiyasında iştirak etmək, daxili texnologiyaların inkişafına təkan vermək və ixtiraçılıq fəallığını artırmaq, o cümlədən texnologiyaların kommersiyalaşdırılması və transferi mexanizmlərini formalaşdırmaqdır. Bununla əlaqədar xüsusi olaraq Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzi yaradılmasını vurğulamışdır. Kreativ sektorun əhəmiyyətini qeyd olunaraq , son iki ildə kiçik və orta sahibkarlıq üçün bir sıra dəyirmi masalar və forumlar keçirildiyi, braşurlar buraxıldığı, işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" (smart-city, smart-village) konsepsiyaların tətbiq edildiyi, 10 il ərzində kreativ sektorun iqtisadiyyata verdiyi töhfənin 3% artdığı və ÜƏMT metodologiyasına görə, ÜDM-un 5%-dən çox təşkil etdiyi bildirilmişdir.

Əqli mülkiyyətin müasir inkişafındakı tendensiyalardan qaynaqlanan problemlərə toxunan Agentliyin rəhbəri Azərbaycanın ÜƏMT-nın süni intellekt sahəsində göstərdiyi fəaliyyəti dəstəklədiyini bildirib və mütəxəssislərin "əqli mülkiyyət hüquqlarının klassik kateqoriyalarından kənara çıxan məlumatlar siniflərinə münasibətdə mülkiyyət hüquqlarının yenidən müəyyən edilməsinin qaçılmaz göründüyü" fikri ilə həmrəy olduğunu bildirib. İqtisadiyyatla əqli mülkiyyət hüquqlarının qorunması arasında korrelyasiyaya toxunaraq, Agentlik tərəfindən bu sahədə aparılmış araşdırma barədə məlumat verib. Eyni zamanda müəllif hüququ ilə sənaye mülkiyyəti arasında kəsişən məqamları qeyd edərək, bu məsələnin ÜƏMT çərçivəsində müzakirə edilməsini təklif edib.

Agentliyin təmsilçiləri ÜƏMT xətti ilə onlayn rejimdə keçirilən bir sıra digər beynəlxalq tədbirlərdə, o cümlədən süni intellektə həsr olunan sessiyalarda, Koreya Əqli Mülkiyyət İdarəsi (KIPO) ilə birgə təşkil edilən "Süni intellekt və əqli mülkiyyət" adlı konfransda, "Ekosistemlər üçün blokçeynə dair Ağ kitab" mövzusunda seminarda, eləcə də 30-dan artıq distant təlimlərdə, o cümlədən "Hüquqşünaslar üçün Müəllifik hüququ və əlaqəli hüquqların kollektiv idarə olunması", "Əqli mülkiyyət və inkişaf–davamlı inkişaf üçün yaşıl texnologiyalarda innovasiyalar", "Əqli mülkiyyət. Elektron tədris kursları", ÜƏMT Akademiyasının təşkil etdiyi "Patent əməkdaşlığı Müqaviləsinə giriş", "Patent məlumatlarının istifadəsi" adlı təlimlərdə iştirak etmiş, müvafiq sertifikatlar əldə etmişlər.

Agentlik Avrasiya Patent Təşkilatı ilə əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyətini hesabat ilində davam etdirmişdir. Qeyd edilməlidir ki, "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair" Protokolu 2021-ci il 17 mart tarixində qüvvəyə minmişdir. "Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol" 2019-cu il 9 sentyabr tarixində Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində keçirilən Diplomatik konfransda qəbul edilib. Həmin beynəlxalq tədbirdə ölkəmizi Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Protokolu Azərbaycan Respublikası Hökuməti adından K.İmanov imzalayıb. Protokolun depozitarisi Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) Baş direktorudur.

2020-ci il 5 may tarixində "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair" Protokolunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. 2020-ci il 9 dekabr tarixində ÜƏMT-nin Cenevrədəki mənzil-qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi, Fövqəladə və Səlahiyyətli Səfir Vaqif Sadıqov Azərbaycan Respublikası tərəfindən "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasına

sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un təsdiqlənməsi haqqında sənədi ÜƏMT-nin Baş direktoru Daren Tanqa təqdim edib.

"Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol" vahid Avrasiya patenti əsasında sənaye nümunəsinin APT-nin 8 üzv-ölkəsi ərazisində qorunması məqsədi ilə qəbul edilib. Protokol sənaye mülkiyyəti obyektlərinin Avrasiya mühafizəsi sisteminin genişləndirilməsini, onu imzalayan bütün dövlətlərin ərazisində qüvvədə olan vahid Avrasiya patenti əsasında sənaye nümunələrinin mühafizəsi üzrə dövlətlərarası sistemin yaradılmasını, həmin ölkələrin daxili bazarının inkişafını, o cümlədən ticarət və investisiya fəaliyyətinin inkişafı üçün onların ərazilərinin cəlbediciliyinin artırılmasını nəzərdə tutur.

2021-ci ildə Avrasiya Patent Təşkilatı (APT) ilə əməkdaşlıq çərçivəsində Agentliyin nümayəndələri bu təşkilatın bir çox tədbirlərində iştirak etmişlər.

2021-ci il 9-10 avqust tarixlərində Moskva şəhərində APT-nın İnzibati Şurasının 38-ci iclası keçirilmişdir. Bu təşkilatın idarəedici orqanı olan Avrasiya Patent İdarəsinin (APİ) hazırkı prezidenti Saule Tlevlessovanın səlahiyyət müddətinin 2022-ci il 10 fevral tarixində sona çatması nəzərə alınaraq, gündəliyə APİ-nin prezidentinin seçilməsi məsələsi çıxarılmış, gizli səsvermənin nəticələrinə görə, Rusiya Federasiyasının namizədi Rusiya Əqi Mülkiyyət üzrə Federal Xidmətinin (Rospatent) rəhbəri Qriqori İvliyev APİ-nin yeni seçilmiş prezidenti elan edilmişdir. Agentlik aidiyyəti dövlət orqanları ilə məsləhətləşmələr əsasında Azərbaycanın səsini Rusiyanın namizədinin lehinə vermişdir.

2021-ci ilin 21-22 dekabr tarixlərində Moskva şəhərində hibrid rejimdə APT-nın İnzibati Şurasının 39-ci iclası keçirilmişdir. Tədbirdə APİ-nin yeni seçilmiş prezidenti ilə APT arasında müqavilənin bağlanılması məsələsi müzakirəyə çıxarılmış, nəticədə bu sənəd qəbul edilmişdir.

Hesabat ilində Agentliyin nümayəndələri APT-nın mütəmadi keçirilən işçi qruplarının işində iştirak etmişlər, o cümlədən 28-29 oktyabr tarixlərində bu təşkilatın İnzibati Şurasının Büdcə işçi qrupunun iclasında 2022-ci il üçün büdcənin layihəsinin və Avrasiya Patent Konvensiyasının Maliyyə təlimatının müzakirələrinə qatılmışlar.

Agentliyin təmsilçiləri həmçinin APT-nın təşkil etdiyi təlim xarakterli tədbir, seminar və konfranslarda iştirak etmişlər. Bu sırada APİ və Avropa İttifaqının əqli mülkiyyət üzrə Təşkilatının (EUPİO) 17-18 iyun tarixlərində birgə təşkil etdiyi "Sənaye nümunələrinə dair iddia ərizələrinə baxılmanın yaxşı təcrübələri" adlı vebinarda sənaye nümunələrinin ekspertizasına dair biliklərin təqdim edilməsi ilə təcrübələrin mübadiləsi, nümunələrin yeni növləri, qabaqcıl axtarış üsulları, apellyasiya orqanlarının qərarlarına dair şikayətin verilməsi qaydalarının təcrübəsi kimi məsələlərin müzakirəsi müsbət praktiki əhəmiyyət kəsb etmişdir.

Həmçinin 13-17 dekabr tarixlərində APT-nın Windows Server 2016 sisteminin tətbiqi ilə əlaqədar təşkil etdiyi təlimlər Agentliyin İT mütəxəssislərinin informasiya təhlükəsizliyi sahəsində bacarıqlarının artırılmasına dəstək olmuşdur.

Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində beynəlxalq əlaqələr sisteminin inkişafı ilə bağlı aparılan işlər çərçivəsində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqlarında və ticarət ilə əlaqəli digər tədbirlərdə Azərbaycan hökumətinin potensialının artırılması" layihəsi çərçivəsində "Əmtəə nişanları hüquqlarının pozulmasına qarşı Aİ-nın bazarda monitorinq təcrübəsinin öyrənilməsinə dəstək" fəaliyyətinin aktuallaşdırılması məqsədilə Agentliyin əməkdaşları Aİ-nın ölkəmizdəki nümayəndəliyinin və İqtisadiyyat Nazirliyinin aidiyyəti bölmələri ilə onlayn müzakirələr keçirmiş və qeyd edilən fəaliyyətlə əlaqədar növbəti addımları müəyyənləşdirmişlər.

23 iyun tarixində həmin layihə çərçivəsində Agentlik və Dövlət Gömrük Komitəsinin birgə təşkilatçılığı ilə "Bazarın monitorinqi/nəzarəti, əmtəə nişanları üzrə hüquqların

pozulmasına qarşı mübarizə və əqli mülkiyyət hüquqlarının sərhəddə təminatı” mövzusunda seminar keçirilmişdir. Tədbirdə Aİ-nın əqli mülkiyyət hüquqları üzrə eksperti tərəfindən “Monitorinq/bazar nəzarəti və əmtəə nişanlarına hüquqların pozulmasına qarşı mübarizə sahəsində Aİ Üzv Dövlətlərin təcrübəsi” və “Əqli mülkiyyət hüquqlarının təminatı sahəsində Aİ Üzv Dövlətlərin təcrübəsi” mövzularında təqdimatlar edilmiş, iştirakçılar bazarın monitorinqində/nəzarətində və Aİ-da əmtəə nişanları üzrə hüquqların pozulmasına qarşı mübarizədə rol oynayan səlahiyyətli orqanlar, həmçinin malların saxlanılması üçün əsaslar və bununla bağlı əlaqəli risklər, icra tədbirlərinin praktiki aspektləri, əmtəə nişanlarını idarə etmək üçün onlayn imkanlar, əqli mülkiyyət hüquqlarının pozulması və idxal olunan malların rəsmiləşdirilməsi, əqli mülkiyyət hüquqları obyektləri üçün elektron qeydiyyat və digər məsələləri müzakirə etmişlər.

29 noyabr - 1 dekabr tarixlərində Avropa İttifaqı Əqli Mülkiyyət İdarəsi (EUPİO) tərəfindən Ukraynanın paytaxtı Kiyev şəhərində Aİ-nın hüdudlarından kənarda əqli mülkiyyət idarələri ilə əməkdaşlığı gücləndirən birgə və çoxtərəfli platformanın yaradılması məqsədilə Aİ-nın əqli mülkiyyət çərçivəsində hazırlanmış “Alətlər və üsulları üzrə Texniki seminar” keçirilmişdir. Agentliyin əməkdaşlarının da iştirak etdiyi bu tədbirdə Avropa əmtəə nişanı və sənaye nümunələri üzrə Əqli mülkiyyət idarələrinin “Konvergensiya Proqramı” çərçivəsində əməkdaşlıqda formalaşan ümumi təcrübəyə dair, həmçinin “Kiçik və orta sahibkarlığa dəstək” və “Avropada əqli mülkiyyət hüquqlarının pozulması hallarının müşahidəsi” mövzularında müzakirələr aparılmış, kiçik və orta sahibkarlığa əqli mülkiyyət sahəsində dəstəyin göstərilməsi üçün maarifləndirmə, sahibkarların əqli mülkiyyət hüquqlarını qorumaqla hansı mənfəəti əldə edə biləcəkləri barədə məlumatlandırılmaları istiqamətində fəaliyyətlərin əhəmiyyəti qeyd olunmuşdur.

Hesabat ilində Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Azərbaycan Respublikası üzrə illik Fəaliyyət Proqramına uyğun olaraq “Rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə olunması və qorunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin institusional potensialının gücləndirilməsi” (SICCA) adlı Tvinninq layihəsi yekunlaşmışdır.

Agentliyin benefisiarı olduğu layihənin başa çatması ilə əlaqədar keçirilən tədbirdə çıxış edən Agentliyin İdarə Heyətinin sədr müavini ölkəmizdə əqli mülkiyyət hüquqlarının qorunmasında xarici ölkələrlə əməkdaşlığın faydasını qeyd edərək, Tvinninq layihəsi çərçivəsində Aİ-nın ekspertlərinin iştirakı ilə beynəlxalq təcrübənin öyrənilməsini təqdir edib, layihənin faydalı olduğunu və uğurla başa çatdığını qeyd edərək, gələcək tvinninq layihələrinin keçirilməsi təklifini irəli sürmüşdür.

4 komponentdən ibarət Tvinninq layihəsi çərçivəsində aşağıdakı istiqamətlərdə iş aparılıb və nəticələr əldə olunub:

- müəlliflik hüquqları və əlaqəli hüquqların qorunması üzrə institusional potensialın artırılması;
- Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin texniki cəhətdən institusional bazasının gücləndirilməsi (İKT infrastrukturunun təkmilləşdirilməsi və Milli Rəqəmsal Aqreqatorun yaradılması);
- qanunvericilik bazasının təhlili əsasında təkliflərin hazırlanması;
- əqli mülkiyyət sahəsi üzrə təlimlərin keçirilməsi və ictimaiyyətin məlumatlandırılması (maarifləndirilməsi).

Agentlik həmçinin 2021-2027-ci illər üçün Azərbaycan üzrə Aİ-nın Çoxillik İndikativ Proqramlaşdırma çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış təkliflər paketinə dair öz təklifini vermiş, əqli mülkiyyət sahəsinə dair müddəanın bu sənəddə yer almasının zəruriliyini əsaslandırmışdır.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində Nazirlər Kabinetinin tapşırıqları əsasında Agentlik MDB-nin əqli mülkiyyət və əqli mülkiyyət hüquqlarının qorunmasını

ehtiva edən digər sahələr üzrə qərar və layihələrin hazırlanması prosesində iştirakını davam etdirmişdir. Əqli mülkiyyətin mühafizəsi və hüquqi qorunması sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi və müasir informasiya texnologiyalarının, o cümlədən müəlliflik hüququ sahəsində rəqəmsallaşma mexanizmlərinin tətbiqi, əqli fəaliyyət nəticələrinin iqtisadi dövriyyəyə cəlb olunmasının stimullaşdırılması, texnologiyaların kommersiyalaşması mexanizmlərinin inkişafı, investisiyaların innovasiyalara və biliklər iqtisadiyyatının dayanıqlı inkişafına yatırılması, qeyri-maddi mədəni irsin qorunması və səmərəli istifadəsi məsələləri bu fəaliyyət çərçivəsində diqqət mərkəzində olmuşdur.

Qeyd etmək lazımdır ki, Agentliyin MDB çərçivəsində fəaliyyətinin daha səmərəli həyata keçirilməsi və ölkəmizin əqli mülkiyyət sahəsində maraqlarının daha etibarlı müdafiəsi üçün Azərbaycanın bu təşkilatın qəbul etdiyi bəzi sənədlərə qoşulması məsələsi dövlət orqanları tərəfindən müsbət qarşılanmışdır. Belə ki, Milli Məclis tərəfindən "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında" Sazişə və "2010-cu il 19 noyabr tarixli "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş"ə dəyişikliklər edilməsi haqqında" Protokola qoşulmaq barədə" qanun layihələri birinci oxunuşda qəbul edilmişdir.

2021-ci il 28 may tarixində Minsk şəhərində MDB Hökumət Başçıları Şurasının iclası çərçivəsində qəbul edilmiş, hazırlanmasına Agentliyin də töhfə verdiyi "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş" Azərbaycan Respublikası tərəfindən müvafiq qeyd-şərtlə imzalanmış, hazırda bu sazişin ölkəmizdə qüvvəyə minməsinin təmin edilməsi məqsədi ilə Agentlik üzərinə düşən zəruri işləri başa çatdırmış, sənəd müvafiq qaydada təqdim edilmişdir.

Eləcə də Agentlik Nazirlər Kabinetinin tapşırıqları əsasında MDB İcraiyyə Komitəsinin "MDB iştirakçı dövlətlərinin mədəni irs obyektlərinin qorunmasına dair Konvensiya", MDB İqtisadi Şurasının "MDB iştirakçı dövlətlərinin informasiya-telekommunikasiya şəbəkələrində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinə hüquqların qorunması və mühafizəsi üzrə əməkdaşlığa dair Sazişin layihəsinə dair Qərar", MDB İcraiyyə Komitəsinin antiinhisar siyasəti üzrə Dövlətlərarası Şurasının "MDB iştirakçı-dövlətlərinin tibbi məmulatların əmtəə bazarlarında rəqabətin vəziyyəti barədə Məruzə", "Milli məlumat bazalarının formalaşdırılması və əqli mülkiyyət sahəsində hüquq pozuntularının qabaqlanması və qarşısının alınması üzrə məlumatın dövlətlərarası mübadiləsinin təşkili Konsepsiyası"nın layihələri ilə əlaqədar tapşırıqların icrasını, "Müstəqil Dövlətlər Birliyinin 2030-cu il dövrünə qədərki iqtisadi inkişaf Strategiyası"nın birinci mərhələsinin (2021-2025-ci illər) həyata keçirilməsinə dair Tədbirlər Planı"nın "MDB iştirakçı dövlətlərinin iqtisadiyyatına COVİD-19 pandemiyası səbəbindən meydana gələn neqativ təsirlərin minimizasiyasına dair tədbirlər" bölümünün həyata keçirilməsinə dair Yol xəritəsi haqqında" 2021-ci il 18 iyun tarixli Qərarı ilə əlaqədar MDB-nin aidiyyəti bölmələri ilə əməkdaşlıqda müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmişdir.

Bunlarla yanaşı, Agentlik "Əqli mülkiyyət sahəsində hüquq pozuntularının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişin xüsusi rəylə təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında" və "İxtiraların hüquqi mühafizə sahəsində dövlətlərarası sirlərin qorunmasının qarşılıqlı təmin edilməsi haqqında Saziş"in qüvvədən düşməsi barədə qanunların qəbul edilməsi ilə əlaqədar üzərinə düşən məsələlərin həlli üçün zəruri işləri icra etmişdir.

Agentlik həmçinin ölkələrarası ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyət davam etdirmiş, o cümlədən, Rusiya, Türkiyə, Gürcüstan, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla ikitərəfli hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyalarının iclaslarının qərarlarının icra edilməsi ilə əlaqədar əməkdaşlıq haqqında müqavilələrin layihələri üzərində müvafiq işlər aparılmışdır.

Azərbaycan Respublikasının Baş nazirinin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində 2021-ci il 20 may tarixində Moskva şəhərində "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Əqli Mülkiyyət üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında Anlaşma Memorandumu" imzalanmışdır. Memorandumu Azərbaycan Respublikasının iqtisadiyyat naziri və Rusiya Federasiyasının iqtisadi inkişaf naziri imzalamışlar. Memorandumun məqsədi əqli mülkiyyət sahəsində iki ölkə arasında uzunmüddətli əməkdaşlığın həyata keçirilməsi üçün daha əlverişli şəraitin yaradılması, müntəzəm peşəkar əlaqələrin qurulması və saxlanılmasıdır. Memorandum qarşılıqlı maraq doğuran, o cümlədən layihələrin, proqramların və tədbirlərin işlənib hazırlanması və onların həyata keçirilməsi üçün zəruri maddi-texniki və informasiya dəstəyinin təminatı, elmi-praktiki fəaliyyətin prioritet istiqamətləri üzrə birgə elmi-metodiki, analitik, ekspert, təqdimat materiallarının dərcinin təşkili, birgə maraqlar sahəsində operativ informasiya mübadiləsi, elmi-praktiki fəaliyyət sahəsində vahid informasiya mühitinin yaranmasına istiqamətlənən effektiv kommunikasiya formalarının işlənməsi, peşə maraqları sahəsində hüquqi münasibətlərin tənzimlənməsinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması, əqli mülkiyyət sahəsində mütəxəssislərin hazırlanması, qeyd edilən sahələr üzrə əməkdaşlığın həyata keçirilməsi prosesində milli və beynəlxalq elmi-praktiki konfransların, simpoziumların təşkili və mütəxəssislər arasında təcrübə mübadiləsinin aparılmasını nəzərdə tutur.

Türkiyə Respublikası ilə əlaqələrin normativ-hüquqi bazasının genişləndirməsi məqsədilə "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Türkiyə Patent və Əmtəə Nişanları Qurumu (Türkpatent) arasında sənaye mülkiyyətinin qorunması haqqında Anlaşma Memorandumu" üzərində iş başa çatdırılmışdır və tərəflərin bu sənədi imzalaması gözlənilir. Anlaşma Memorandumunun məqsədi tərəflər arasında ikitərəfli əməkdaşlıq üçün ümumi çərçivənin yaradılması, bilik və yaxşı təcrübə nümunələrinin mübadiləsi ilə birlikdə ölkələrin əqli mülkiyyət sistemlərinin idarəçiliyinin inkişaf etdirilməsi və səmərəliliyinin artırılmasıdır. Tərəflər əqli mülkiyyət sahəsində milli qanunvericilik və təcrübələri haqqında məlumat mübadiləsini aparmaq və bu məqsədlə konkret əməkdaşlıq fəaliyyətlərini inkişaf etdirmək, bir birinin əqli mülkiyyət hüquqları sahiblərinin hüquqlarının qeydiyyatı və effektiv şəkildə qorunmasını təmin etmək, regional və beynəlxalq səviyyədə sənaye mülkiyyətinin effektiv qorunmasını təmin etmək üçün üçüncü ölkələr və beynəlxalq təşkilatlarla müştərək əməkdaşlıq imkanlarını inkişaf etdirmək, iştirak etdikləri beynəlxalq layihələrdə birgə yanaşmanı formalaşdırmaq, məlumat və təcrübə mübadiləsi aparmaq, bu məqsədlərlə birgə fəaliyyətlər təşkil etmək sahələrində əməkdaşlıq etməyi nəzərdə tuturlar.

Agentlik tərəfindən həmçinin "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Qırğızıstan Respublikası Nazirlər Kabineti yanında Əqli Mülkiyyət və İnnovasiya Dövlət Agentliyi arasında əqli mülkiyyət hüquqlarının qorunması sahəsində anlaşma və əməkdaşlıq haqqında Memorandum"un layihəsinin yekun versiyası Nazirlər Kabinetinə təqdim edilmişdir.

Slovakiya ilə əqli mülkiyyətin qorunması sahəsində ikitərəfli əlaqələr ölkəmizdə səfərdə olan bu ölkənin Sənaye Mülkiyyəti İdarəsinin prezidenti Matuş Medveslə Agentliyin İdarə Heyətinin sədrinin görüşündə müzakirə olunmuşdur. Azərbaycanda əqli mülkiyyət sisteminin qurulması tarixi haqqında danışan İdarə Heyətinin sədri

hazırda tabeliyində Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi və Respublika Elmi-Texniki Kitabxanası olan Agentliyin fəaliyyəti və funksiyaları barədə qonağa məlumat verib, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Fərmanı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradıldığını qeyd edib. Duqlas Nortun neoinstitusionalizm nəzəriyyəsinə əsaslanaraq, vahid qurumun yaradılmasının əməliyyat xərclərinin minimuma endirilməsinə müsbət təsirini vurğulayıb. Həmçinin Agentlik tərəfindən kreativ sənayenin iqtisadiyyatda rolu barədə apardığı tədqiqatlar haqqında məlumat verərək, son illər kreativ sektorun verdiyi töhfənin ölkə iqtisadiyyatında və ÜDM-da getdikcə artdığını bildirib. Əqli mülkiyyət hüquqlarının qorunması səviyyəsi ilə iqtisadi inkişaf səviyyəsinin qarşılıqlı təsiri haqqında qonaqla fikir mübadiləsi aparan Agentliyin rəhbəri onlar arasında olan korrelyasiya sahəsində Agentlik tərəfindən aparılmış araşdırma barədə danışıb, eyni zamanda müəlliflik hüququ ilə sənaye mülkiyyəti arasında kəsişən məqamları da diqqətə çatdırıb. O, bu məsələlərin cari ilin iyunun 22-də ÜƏMT-nın Baş direktoru ilə keçirilmiş video görüşdə qaldırdığını və ÜƏMT çərçivəsində müzakirə olunmasını təklif etdiyini qeyd edib. M.Medves Azərbaycanın əqli mülkiyyət sahəsindəki uğurları, beynəlxalq reytinq göstəricilərində ölkəmizin nəzərəçarpacaq irəliləyişləri haqqında məlumatlı olduğunu bildirib. O, hazırda Slovakiyada universitet və elmi-tədqiqat institutlarında texnologiyaların transferi və kommersialaşdırılması sahəsində görülən işlərdən danışıb və bu istiqamətdə ölkəmizin təcrübəsindən yararlanmaqda maraqlı olduğunu qeyd edib.

Gürcüstanla sahəvi əməkdaşlıq məsələləri bu ölkənin Milli Əqli Mülkiyyət Mərkəzinin (Sakpatenti) sədr müavini Nino Çikovaninin ölkəmizə işçi səfəri zamanı onun Agentliyin İdarə Heyətinin üzvü, sədr müavini ilə görüşündə müzakirə edilib. Görüşdə Gürcüstan təmsilçisinə cənab Prezident İlham Əliyevin rəhbərlyi ilə ölkəmizdə həyata keçirilən institusional islahatlar çərçivəsində vahid dövlət qurumu olan Əqli Mülkiyyət Agentliyinin yaradıldığı bildirilib, Agentliyin fəaliyyəti və funksiyaları, sahə üzrə əldə edilmiş nailiyyətlər, beynəlxalq reytinqlərdə, o cümlədən Qlobal İnnovasiya İndeksində əqli mülkiyyətlə əlaqəli göstəricilərin müsbət dinamikası, Agentliyin göstərdiyi rəqəmsal xidmətlərin həcminin və keyfiyyətinin, eləcə də tətbiq olunan innovativ üsullar əsasında patent və ixtiraçılıq fəallığının artması, iqtisadiyyatla əqli mülkiyyət hüquqlarının qorunmasının korrelyasiyası nəzərə alınaraq, texnologiyaların transferi və ixtiraların kommersializasiyasına dəstək sahələrində fəaliyyəti barədə geniş məlumat verilmişdir.

Görüşdə Azərbaycan və Gürcüstan arasında əqli mülkiyyət sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən coğrafi göstəricilərin qarşılıqlı tanınması haqqında dövlətlərarası sazişin qəbul edilməsi məsələsi müzakirə olunmuşdur.

Bunlarla yanaşı hesabat dövründə Agentlik ABŞ, Belarus, Qazaxıstan, Qırğızıstan, Birləşmiş Ərəb Əmirlikləri ilə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələlərinin inkişaf etdirilməsi ilə bağlı bu ölkələrin müvafiq qurumları ilə əlaqələr saxlamış, həmçinin ölkəmizin Böyük Britaniya, Albaniya, Almaniya, Çin, Braziliya, Yaponiya və digər ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığına dair müqavilələrin layihələrinə əqli mülkiyyət baxımından rəy və təkliflərini bildirmişdir.

Agentliyin beynəlxalq əlaqələrin inkişafı ilə əlaqədar fəaliyyətinin daha bir istiqaməti müxtəlif dövlət və şirkətlərin nümayəndələri ilə əqli mülkiyyət sahəsinə aid gündəmdə olan praktiki və nəzəri məsələlərin müzakirə edilməsidir.

Bu xüsusda oktyabr ayının 19-da Agentliyin İdarə Heyətinin üzvü, sədr müavini Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin iqtisadiyyat şöbəsinin müdiri Dru Lebkürer ilə görüşdə ölkəmizdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) şirkətlərinin proqram təminatlarının hüquqi qorunmasına xüsusi diqqət verildiyini, Rəqəmsal İnkişaf

və Nəqliyyat Nazirliyi ilə birgə “Microsoft” şirkəti ilə əməkdaşlıq edildiyini, “Oracle” və “Trimble Tekla” şirkətlərinin proqram təminatı məhsullarının qorunması üçün müvafiq işlərin aparıldığını bildirib. O, qeyd etmişdir ki, 2021-ci ilin iyul ayında ABŞ-nın "Trimble" Korporasiyasının nümayəndələri Agentliyə bu korporasiyanın istehsal etdiyi “Tekla Structures” proqramından lisenziyasız istifadə olunması ilə bağlı müraciət etmişlər. Məsələ Agentlik tərəfindən araşdırılaraq 10 təşkilata (şirkətə) müvafiq məktublar göndərilmişdir.

Görüşdə eyni zamanda Agentliyin ABŞ-ın Ticarət Departamentinin Kommersiya Hüququnun İnkişafı Proqramı (CLDP) ilə birlikdə Azərbaycanda əqli mülkiyyət sahəsində ictimai məlumatlılığın artırılması üçün tədbirlərin keçirildiyi vurğulanıb. D.Lebkürer əqli mülkiyyət sahəsinin ABŞ xarici iqtisadi siyasətinin əsas hissəsi olduğunu qeyd edərək, Agentlik ilə əməkdaşlığa xüsusi əhəmiyyət verildiyini vurğulayıb, ABŞ-ın ölkəmizdəki səfirinin də bunu yüksək dəyərləndirdiyini bildirib. Görüşdə Agentliyin CLDP, ABŞ-ın digər dövlət və özəl qurumları ilə gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

ABŞ-nın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Örl Litzenberq Agentliyə ünvanladığı məktubunda Oracle şirkətinin əqli mülkiyyət hüquqlarının qorunması üçün gördüyü işlərə görə Agentliyə təşəkkürünü bildirib, Azərbaycanda əqli mülkiyyət hüquqlarının qorunmasının müsbət biznes mühitin yaradılmasının vacib hissəsi olduğunu qeyd edərək, ABŞ şirkətlərinin əqli mülkiyyət hüquqlarının qorunması istiqamətində birgə səylərin davamına, Agentliyin inkişafının dəstəklənməsinə və gələcək əməkdaşlıq yollarınının müzakirə edilməsinə hazır olduğunu bildirmişdir.

16 noyabr tarixində CLDP çərçivəsində keçirilmiş videokonfransda texnologiyaların kommersializasiyası və transferi sahəsində Agentliyə dəstək məsələsi müzakirə olunmuşdur. O cümlədən, Agentliyin nəzdində yaradılmış Texnologiyaların kommersiyalaşdırılması və transferi Mərkəzinin yerli universitetlərin texnologiyaların transferi ofisləri, Milli Elmlər Akademiyasının Yüksək Texnologiyalar Parkı və özəl sektorla münasibətlərini tənzimləyən normativ bazanın formalaşdırılması, CLDP-nin qeyd olunan Mərkəzin personalının iş keyfiyyətinin artırılmasına potensial töhfəsi, bu məqsədlə silsilə xarakterli vebinarların keçirilməsi diqqət mərkəzində olmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycan ABŞ Ticarət Nümayəndəliyinin Ofisi (Prezidentin İcraçı Ofisi) tərəfindən hər il ticarət tərəfdaş dövlətlərində əqli mülkiyyət hüquqlarının riayət olunmasına və qorunmasına dair dərc edilən Xüsusi 301 Hesabatına ("Siyahı 301") 2021-ci ildə də salınmayıb. Bu hesabatın məqsədlərindən biri siyahıda göstərilən dövlətlərin hökumətlərini piratçılığa qarşı fəal mübarizə aparmağa və əqli mülkiyyət hüquqlarının qorunması sahəsində qanunvericiliyi təkmilləşdirməyə həvəsləndirməkdir. Bu hesabat ABŞ-nın dövlət qurumlarının və xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin və digər maraqlı tərəflərin təqdim etdiyi məlumatlar əsasında hazırlanır.

Hesabat ilində Agentliyin nümayəndələri ölkə xaricində onlayn rejimdə keçirilən bir sıra beynəlxalq tədbirlərdə, o cümlədən, 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunan Rusiya Əqli Mülkiyyət üzrə Federal Xidməti (Rospatent), Rusiyanın “Ali İqtisadiyyat Məktəbi” Milli Tədqiqat Universitetinin “UNESCO-nun müəlliflik hüququ, əlaqəli, mədəni və informasiya hüquqları üzrə kafedrası” Beynəlxalq Elm-Təhsil Mərkəzi və "Rusiya Müəllif Cəmiyyəti" Ümumrusiya İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Sənaye mülkiyyəti sahəsində müəllif-hüquq problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransında iştirak ediblər.

Hibrid formatda (onlayn və oflayn) təşkil olunan tədbirdə müəllif hüquqları, əmtəə nişanları və sənaye nümunələrinə hüquqların qorunmasındakı oxşarlıq və fərqliliklər, sənaye nümunələrinin patentlə qorunması prosedurlarının modernləşdirilməsi, Avrasiya

əmtəə nişanları və sənaye nümunələrinə hüquqları ilə bağlı mübahisələrin baxılması sistemləri, məhkəmə təcrübəsində müəllif hüquqlarının və əmtəə nişanları və ya sənaye nümunələrinə olan hüquqların qorunması ilə bağlı ziddiyyətli məsələlər, elm, ədəbiyyat və incəsənət əsərlərinə, əmtəə nişanlarına, sənaye nümunələrinə olan hüquqların qorunmasında blokçeyn texnologiyalarından istifadə perspektivləri və digər məsələlər müzakirə olunub.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri konfransa onlayn formatda qoşularaq tədbirin plenar iclasında "Müəlliflik və patent hüququnun əlaqəsi: normativ-hüquqi və kolliziya aspektləri" mövzusunda məruzə ilə çıxış edib.O, qeyd edib ki, əqli mülkiyyətin mövcud anlayışı bu institutun ənənəvi qavrayışından xeyli fərqlənir və bu, mövcud əqli mülkiyyət landşaftına getdikcə kardinal təsir göstərən və təsirini davam etdirəcək əhəmiyyətli texnoloji dəyişikliklər səbəbindəndir. Müasir əqli mülkiyyət kateqoriyası anlayışı yalnız fiziki və ya hüquqi şəxsin əqli fəaliyyət nəticələrinə olan müstəsna hüquqlarını deyil, ilk növbədə qorunma hüquqlarına malik olan əqli fəaliyyət nəticələrinin özünü nəzərdə tutur. Bazarda tələb və təklif obyektləri kimi hüquqlar deyil, hüquqlara malik olan əqli fəaliyyət nəticələri çıxış edir, bu obyektlərə dair razılaşmalarda isə belə hüquqların verilmə həcmi və şərtləri nəzərə alınır.

Agentliyin rəhbəri çıxışında müəllif hüquqlarının patent qanunvericiliyinə təsiri məsələsini xüsusi vurğulayıb. Onun sözlərinə görə, patentlər barəsində ictimaiyyətin məlumatlandırılmasına daha çox diqqət yetirilməlidir, lakin bu zaman vacib bir şərt - patent və müəlliflik hüququ arasındakı əlaqə nəzərə alınmalıdır. Məsələ burasındadır ki, patent iddia sənədləri müəlliflik hüququnun obyektidir.Ixtiraçının iddia sənədinə olan müəlliflik hüququ iddia sənədinin hazırlandığı andan (onun patent idarəsinə təqdim edilənə qədər) yaranır və patent almaq üçün müvafiq sənəd formalarının doldurulması, bir tərəfdən, əsərin obyektiv formada olmasını, digər tərəfdən isə, müəyyən mənada onun "nəşri"ni təsdiq edir. Müəllif-hüquq qanunvericiliyinə görə, əsərdən hər hansı bir istifadə yalnız müəllifin (hüquq sahibinin) yazılı icazəsi ilə həyata keçirilə bilər. Lakin iddia sənədləri bu normalara riayət edilmədən dərc olunur və üstəlik, nüsxələri qeyri-müəyyən şəxslər dairəsinə göndərilir.

O, patent iddia sənədlərində ixtiraçıların müəllif hüquqlarının pozulması probleminin həll olunmasının iki yollunu göstərib:

- doldurulmuş müraciət formalarında ərizəçini bu sənədlərin dərc olunmasının hüquqi nəticələri ilə tanış etmək və bununla razılığını almaq;

- ABŞ patent qanunvericiliyində tətbiq edildiyi kimi, patent verilməmişdən əvvəl iddia sənədlərinin dərc edilməməsi.

Sonra Agentliyin rəhbəri hüquqların kəsişməsi məsələsinə dair fikirlərini bölüşüb, müəlliflik hüququ ilə sənaye nümunəsi və ya əmtəə nişanı arasında, eləcə də sənaye nümunəsi ilə əmtəə nişanı arasında toqquşma hallarının ətraflı təhlilini aparıb.

Tədbirin moderatoru UNESCO kafedrasının Beynəlxalq Elm-Təhsil Mərkəzinin direktoru professor Mixail Fedotov Agentliyin İdarə Heyətinin sədrinin çıxışında təqdim etdiyi əqli mülkiyyət sahəsinə dair kolliziyaların həll olunması yolları barədə fikirlərin onun özünün bu ciddi hüquqi məsələlərlə bağlı düşüncələri ilə üst-üstə düşdüyünü qeyd edib və Agentliyin geniş potensialını nəzərə alaraq, bu aktual elmi və praktiki məsələlərlə əlaqədar ikitərəfli müzakirələrin davam etdirilməsinin perspektivli olduğunu vurğulayıb.

Agentliyin əməkdaşları sentyabr ayının 8-22-də Çin Xalq Respublikası tərəfindən təşkil edilən "Gələcək nəsil süni intellektin inkişafı və planlaşdırılmasına dair" seminarda, həmçinin Çin tərəfindən 2021-ci ildə bir sıra ölkələrin dövlət qurumları üçün müxtəlif sahələri əhatə edən layihə çərçivəsində oktyabr ayının ikinci yarısında Çin Ticarət Nazirliyinin dəstəyi ilə Şandun Xarici Ticarət Kolleci tərəfindən təşkil olunan "Əqli mülkiyyət hüquqlarının qorunması və inkişaf" adlı onlayn seminarda iştirak etmişlər. Tədbirdə əsasən Çində əqli mülkiyyətin qorunması ilə bağlı qanunvericilik və mövcud

vəziyyət, bu sahədə ölkənin təcrübəsi, əqli mülkiyyət hüquqlarının tətbiqi və piratçılığa qarşı mübarizə, rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqları, əqli mülkiyyət ilə beynəlxalq ticarət arasında əlaqə və digər mövzular haqqında ölkə universitetlərinin müəllimləri, hüquq şirkətlərinin nümayəndələri, əqli mülkiyyət sahəsi üzrə ekspertləri tərəfindən mühazirələr təqdim edilmişdir.

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 16-cı iclasının Protokolunun icrası ilə əlaqədar Agentliyin və Qazaxıstan Ədliyyə Nazirliyinin “Əqli mülkiyyət Milli İnstitutu”nun (KAZPATENT) birgə təşkilatçılığı ilə əqli mülkiyyət obyektlərinin hüquqi qorunması məsələlərinə dair oktyabr ayında onlayn treninq keçirilmişdir.

Əqli mülkiyyət sahəsində ikitərəfli münasibətlərin praktiki əməkdaşlıq müstəvisinə keçirilməsi məqsədi daşıyan ardıcıl təşkil olunacaq bir neçə eyni mövzulu analoji tədbirlərdə əqli mülkiyyət obyektlərinin – müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin, ixtira, sənaye nümunələri, faydalı modellər, əmtəə nişanları, coğrafi göstəricilər və seleksiya nailiyyətlərinin - hüquqi qorunmasına dair tərəflərin təcrübəsi ilə bölüşmək və müqayisəli təhlillər nəticəsində müasir çağırışlara birgə səylərlə adekvat cavabların formalaşdırılması yollarının müəyyən edilməsi nəzərdə tutulur.

Ümumiyyətlə, hesabat ilində Agentliyin nümayəndlələri 50-dən artıq təlim, seminar və konfranslarda iştirak etmişlər.

Hesabat ilində Agentlik tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələri ilə bağlı hökumətlərarası, ölkənin nazirlik və komitələrinin digər ölkələrin aidiyyəti qurumları arasında əlaqələrə aid 100-dən artıq, ÜƏMT üzrə - 28, APT üzrə - 22, MDB üzrə – 24, digər beynəlxalq qurumlarla bağlı – 11 sənəd daxil olmaqla, 200-dən artıq sənəd icra edilmişdir.

**9. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər.** 2021-ci il ərzində Əqli Mülkiyyət Agentliyinin Aparatında və tabeli qurumlarda informasiya texnologiya həlləri, informasiya mübadiləsi, informasiya təhlükəsizliyi, proqram təminatlarının yenilənməsi və dərcetmə ilə bağlı bir sıra işlər görülmüşdür.

**“PƏNAH” sisteminin təkmilləşdirilməsi.** Elektron Hökumət Portalı üzərindən vətəndaşlar üçün sənəd qəbulunu və müraciətlərlə bağlı məlumatlanmanı daha səmərəli təmin etmək və Agentliyin əməkdaşlarının sorğularına uyğun olaraq, “PƏNAH” sistemində təkmilləşdirmə işləri görülmüşdür.



Buna misal olaraq “PƏNAH” sistemində Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestr şöbəsinə aid icazələr tipində, aşağıda göstərilənlərə uyğun statistik cədvəllər quraşdırılmışdır:

– Hər il daxil olan sənədlərin statistik cədvəli – ümumi say və hansı il nə qədər olması (eləcə də növlərə görə bölünməsi – hər il hansı növdən neçə iddia sənədinin daxil olması);

– İddiaçıların və patent müvəkkillərinin adlarına görə axtarışın olması, hər iddiaçının və ya patent müvəkkilinin adında neçə iddia sənədinin olduğuna baxmaq funskiyasının əlavə olunması;

– Müşahidə şurasına illik göndərilmiş iddia sənədlərin sayını göstərən statistika, eləcə də illik daxil olan sənədlərdən neçəsinin müşahidə şurasına gedib çıxdığını göstərən statistik cədvəl;

– Müşahidə şurasından keçən müsbət və mənfi qərar almış iddia sənədlərinin statistikası;

– Şəhadətnamə almış iddia sənədlərinin statistik cədvəli, eləcə də şəhadətnamələrin sayını göstərən cədvəl.

**“SESDA” Elektron sənəd sövriyyəsi sisteminin tətbiqi və sənədlərin miqrasiyası.** Agentlikdə kargüzarlığın aparılması üçün istifadə olunan “Cybernet” MMC-nin təqdim etdiyi ASDIS “Elektron sənəd dövriyyəsi” sisteminin istifadəsi 01 mart 2021-ci il tarixindən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən təqdim olunan SESDA “SİNAM Elektron Sənəd Dövriyyəsi və Arxiv” sisteminə keçidlə əlaqədar dayandırılmışdır. Hazırda kargüzarlıq yeni SESDA sistemi üzərindən aparılır. Öncə istifadə olunan ASDİS sistemində Agentliyin arxiv məlumatları yerləşir. Bütün məlumatların bir bazada toplanması, axtarılan arxiv sənədlərin əlçatan olmasını nəzərə alaraq ASDIS “Elektron sənəd dövriyyəsi” proqram təminatı bazasındakı məlumatların yeni SESDA sisteminə miqrasiyası prosesinin həyata keçirilməsi ilə bağlı “Cybernet” MMC ilə xidməti müqavilə bağlanmışdır. Hazırda SESDA “SİNAM Elektron Sənəd Dövriyyəsi və Arxiv” sistemində miqrasiya proseslərinin icra olunması ilə bağlı işlər aparılır.

**Çağrı Mərkəzi və IP telefoniya.** Müəllif hüquqları və sənaye mülkiyyəti obyektləri ilə bağlı yaranmış sualların, təklif və şikayətlərin daha operativ şəkildə cavablandırılması məqsədi ilə Agentlikdə Çağrı Mərkəzi qurulmuşdur. Çağrı Mərkəzində vətəndaşların müraciətlərinin cavablandırması ixtisaslaşmış operatorlar tərəfindən icra olunur. Çağrı Mərkəzində istifadə olunun ŞƏMS proqram təminatında müxtəliv növ hesabatların, statistikaların çıxarılması mümkündür.

Agentlikdə yeni Grandstream IP telefoniya sisteminə keçid həyata keçirilmişdir. İP telefoniya müasir kommunikasiya tələblərinə cavab verən, təhlükəsiz və inkişaf etmiş texnologiyadır. Hazırda Agentliyin və tabeliyində olan qurumların 41 əməkdaşı Grandstream markalı IP telefonla təmin olunmuşdur. Yaxın müddətdə bütün əməkdaşların IP telefoniya sistemində istifadə etməsi imkanlarının yaradılması nəzərdə tutulur.

**"ASAN Bridge" şəbəkəsinə qoşulma.** Dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən Elektron Hökumət İnformasiya Sisteminin (EHİS) əsas komponenti olan "ASAN Bridge" şəbəkəsi hazırlanmışdır. Hazırda dövlət qurumlarında dövlət informasiya ehtiyatları və sistemlərinin "ASAN Bridge" şəbəkəsinə qoşulması prosesi həyata keçirilir. Əqli Mülkiyyət Agentliyinin təqdim etdiyi xidmətlərin Elektron Hökumət Portalına ötürülməsi hazırda Azərbaycan Respublikası Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin XROAD şəbəkəsi vasitəsi ilə həyata keçirilir. "ASAN Bridge" şəbəkəsinə qoşulmanın aparılması üçün "ASAN Bridge" sistemi informasiya mübadiləsinə dair inteqrasiya sənədi və Proxy serverlər üçün tələblər nəzərə alınmaqla şəbəkəyə qoşulma icra olunmaqdadır.

**İnteqrasiya alətləri.** 29 noyabr–1 dekabr tarixlərində Avropa İttifaqı Əqli Mülkiyyət Ofisinin (EUIPO) Ukraynanın Kiyev şəhərində təşkil etdiyi seminarda Agentliyin aidiyyəti struktur bölməsinin rəhbəri iştirak etmişdir. Seminarda İnformasiya texnologiyaları ilə bağlı sessiyalarda TMview, DesignView, TMclass, DesignClass alətlərinin tətbiqi ilə bağlı müzakirələr aparılmışdır. İştirakçı ölkələr arasında Gürcüstan və Moldovada qeyd olunan alətlər istifadə olunur. Bu sahədə artıq praktikası olan əməkdaşlarla fikir mübadiləsi aparılarkən, alətlərin həm ekspertlər, həm də iddiaçılar üçün səmərəli olduğu qənaətinə gəlinmişdir. Bu alət 24/7 rejimində işləməklə, gündəlik yenilənir və hər ay 1,2 milyondan çox axtarış alır. Aİ-nin bütün milli ƏM ofislərindən, EUIPO-dan və Aİ hüdudlarından kənarda bir sıra beynəlxalq partnyor ofislərdən alınan əmtəə nişanı müraciətlərini və qeydiyyatdan keçmiş nişanları ehtiva edir. TMview daxilində ictimaiyyətə açıq 100 milyon ticarət nişanına sahib olan alətdir. IT ekspertlərlə görüşdə bu alətin əqli mülkiyyət ofislərindən məlumatları 2 üsulla qəbul edildiyi bildirilmişdir: əqli mülkiyyət ofislərinin bazalarına birbaşa istinad edərək məlumatların götürülməsi və ofis tərəfindən gündəlik məlumatların avtomatik göndərilməsi. Göndərilən məlumatlar ZIP formatda, FTP vasitəsi ilə TMview ümumi bazasına ötürülür. Bu alətlərin tətbiq olunması üçün Agentlikdə əqli mülkiyyətlə bağlı istifadə olunan məlumat bazalarında inteqrasiya üçün müəyyən uyğunlaşdırmaların aparılması tələb olunur. Müvafiq inteqrasiya sənədləri imzalandıqdan sonra Agentliyin də bu platformalara qoşulması nəzərdən keçiriləcəkdir.

**İnformasiya təhlükəsizliyinin təmin olunması.** İnformasiya təhlükəsizliyinin təmin olunması məqsədilə Agentliyin əməkdaşları mütəmadi olaraq məlumatlandırılır, məlumat mübadiləsi üçün istifadəçilər üçün müəyyən olunmuş icazələrə uyğun olaraq sistem üzrə istifadəçi adlarında, ümumi paylaşılan qovluqlarda icazələrin verilmə mexanizminə nəzarət olunur, şəbəkəyə daxili və xarici müdaxilə halları daim nəzarətdə saxlanılır.

**Dərcetmə sahəsində görülmüş işlər.** Hesabat dövründə Agentlik tərəfindən "Nizami Gəncəvi yaradıcılığı Azərbaycanın əqli mülkiyyətidir və bəşəriyyətin mədəni sərvətidir", "İnnovasiyaların kommersiyalaşdırılması sisteminin təmin edilməsi" altməqsədi əsasında innovasiya ekosisteminin uğurlu inkişafının təmin edilməsinin sistemli analizi", "Связь авторского и патентного права: нормативно-правовые и коллизионные аспекты", "İnnovasiyalı inkişaf və əqli mülkiyyət hüquqları", "Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılmasına dair yaddaş kitabçası" (azərbaycan, rus və ingilis dillərində), "Qədim mətnlər və klassik

mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin sahibləri haqqında” (Azərbaycan, rus və ingilis dillərində), “Qafqaz Albaniyası, onun sakinləri və işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlər (azərbaycan və rus dillərində), “Социум, культура и право”, “Права интеллектуальной собственности и экономическое развитие”, “О задачах, стоящих перед системой интеллектуальной собственности в контексте ее развития” adlı kitab və broşürlar cap olunmuşdur. Hesabat dövründə həmçinin əqli mülkiyyət sahəsinə dair digər kitab və broşurlar, maarifləndirici və müəllif-hüquq sahəsi üzrə milli qanunvericiliyə aid materiallar, Agentliyin Nizamnaməsi (Azərbaycan, rus və ingilis dillərində) təkrar nəşr edilmişdir.

Bunlarla yanaşı, “Əqli Mülkiyyət” jurnalının ikinci nömrəsi və Nizami Gəncəvinin 850 illik yubileyinə həsr olunmuş xüsusi nömrə hazırlanaraq Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin rəsmi saytının nəşrlərə aid bölməsində yerləşdirilmişdir. Jurnalın üçüncü və dördüncü nömrələrinin də elektron versiyası üçün materiallar hazırlanmaqdadır.

## 10. Kadrların peşəkarlığının artırılması, vətəndaşların müraciətlərinə baxılması və kargüzarlığın təşkili.

**10.1. Kadrlarla iş və peşəkarlığın artırılması.** Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

Agentliyin Aparatına 4 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 6 nəfər, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 12 nəfər, Respublika Elmi-Texniki Kitabxanasına 4 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 6 nəfər, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 1 nəfər, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən 9 nəfər, Respublika Elmi-Texniki Kitabxanasından 13 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentliyin Aparatı və tabeliyində olan qurumlar üzrə işçilərin cəmi sayı 261 nəfər, o cümlədən Agentliyin Aparatında 66 nəfər, Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 33 nəfər, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 66 nəfər, Respublika Elmi-Texniki Kitabxanasında isə 96 nəfər olmuşdur.

Hesabat dövründə 8 nəfərə müvafiq ixtisas dərəcələri verilmişdir.

Respublika üzrə karantin rejiminin tətbiqi ilə əlaqədar, inzibati dövlət qulluğu vəzifələrinə qəbul üçün keçirilən müsahibələrin onlayn qaydada təşkili təmin edilmişdir.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmiş, həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə daxil edilməsi təmin edilmişdir.

2021-ci ildə Əqli Mülkiyyət Agentliyinin Aparatının və tabeliyində olan qurumların əməkdaşları əqli mülkiyyət sahəsində beynəlxalq qurumların xətti ilə ixtisasartırma tədbirlərində, o cümlədən ÜƏMT Akademiyasının distant təhsil və ixtisasartırma kurslarında, həmçinin digər milli və beynəlxalq kurs və seminarlarda iştirak edərək ixtisaslarını artırmış və 28 sertifikat almışlar, o cümlədən Agentliyin Aparatının əməkdaşları 6, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əməkdaşları 14, Əqli Mülkiyyət hüquqlarının Təminatı Mərkəzinin işçiləri 8 sertifikat almışlar.

Əqli Mülkiyyət Agentliyində “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən etik normalara dair dövlət qulluqçularının maarifləndirilməsi məqsədilə onlayn təlim keçirilmişdir.

Agentliyin aparatının kadr işinə məsul şəxsləri hesabat dövrü ərzində dövlət qulluğu sisteminin mahiyyəti və əhəmiyyəti; dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi; dövlət qulluğunda mövcud problemlər və onların həlli yolları; dövlət qulluğunda təlimlərin təşkili və idarə edilməsi; ehtiyat kadrların idarə edilməsi; vəzifələrin idarəedilməsi sistemindən səmərəli istifadə məsələlərinə həsr olunmuş aşağıdakı təlim, görüş və konfranslarda iştirak etmişlər:

"Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" və ona uyğun olaraq həyata keçirilən tədbirlərdən, dövlət qulluğu sisteminin gələcək perspektivlərindən bəhs edilən görüş (21 iyun 2021-ci il);

- "Ehtiyat Kadrların Elektron Sorğu Sistemi"ndən istifadə qaydaları" mövzusunda təlim (6 iyul 2021-ci il);

- "Dövlət qulluğuna dair qanunvericiliyə edilmiş dəyişikliklər və tətbiqi məsələləri" mövzusunda görüş (5 avqust 2021-ci il);

- "Dövlət qulluğunda mövcud islahatlar: çağırışlar və perspektivlər" mövzusunda keçirilmiş konfrans (14 sentyabr 2021-ci il);

- "Dövlət qulluğunda gender bərabərliyi: mövcud vəziyyət və çağırışlar" mövzusunda təlim (15 oktyabr 2021-ci il);

- "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim (17 noyabr 2021-ci il).

**10.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə 1658 sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin 1105-i icra olunmuş, 78-si icradadır, 475-i isə məlumat xarakterlidir.

Bundan əlavə, Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 257 müraciət, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 934 ərizə, əmtəə nişanının qeydiyyatı ilə bağlı 3263 iddia sənədi, faydalı modelin qeydiyyatı ilə bağlı 32 iddia sənədi, sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 26 iddia sənədi, ixtiranın qeydiyyatı ilə bağlı 135 iddia sənədi, coğrafi göstəricilərin qeydiyyatı ilə bağlı 1 iddia sənədi, əmtəə nişanlarının beynəlxalq qeydiyyatı ilə bağlı milli iddiaçılar tərəfindən 16 iddia sənədi və ixtiraların beynəlxalq qeydiyyatı ilə bağlı milli iddiaçılar tərəfindən 22 iddia sənədi daxil olmuşdur.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun aparılmışdır.

**10.3. Vətəndaşların qəbulu.** Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası"na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür.

Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək və icrasına ciddi nəzarət edilməsi məqsədilə Nazirlər Kabinetinin tapşırıqlarına uyğun olaraq, 2020-ci il mart ayından Əqli Mülkiyyət Agentliyinin bütün struktur bölmələrində vətəndaşların qəbulu məhdudlaşdırılmışdır. Bununla belə, Agentliyin elektron poçt ünvanına daxil olan müraciətlərin qəbulu və Elektron Hökumət Portalı vasitəsilə vətəndaşlara xidmətlərin elektron şəkildə göstərilməsi davam etmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 815 müraciət (onlardan 389 elektron qaydada), 8 müraciət (onlardan 1 elektron qaydada) isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 823). Müraciətlərin 701-i müsbət həll olunmuş, 3-ü qismən həll olunmuş, 52-nə müvafiq izahat verilmiş, 46-sı əsassız sayılmış, 10-u aidiyyəti baxılmaq üçün digər təşkilatlara göndərilmiş, 11-isə icra üçün növbəti ilə keçirilmişdir.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formalarının nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi təmin edilmişdir.

**11. Kollektiv idarəetmə sahəsində aparılan işlər.** 2021-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Agentliyin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır.

Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə qonorarın yığılması sahəsində əməkdaşlıq edilməsi məqsədi ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi ilə “Azərbaycan Professional Kinorejissorlar Gildiyası” arasında imzalanmış əməkdaşlıq sazişinə uyğun olaraq, birgə fəaliyyət istiqamətləri müəyyən edilmiş və həmin təşkilatla bir sıra birgə tədbirlər həyata keçirilmiş, o cümlədən audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasında iştirak edən maddi daşıyıcıların növlərinin müəyyən edilməsi, belə maddi daşıyıcıların ölkə ərazisinə idxal edən və ölkə ərazisində istehsal edən subyektlərin müəyyən olunması istiqamətində uçotun formalaşdırılması, həmin subyektlərin qanunvericiliyin tələbləri üzrə maarifləndirici tədbirlərin həyata keçirilməsi, audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovisual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonogram istehsalçılarının qonorar almaq hüququnun təmin edilməsi istiqamətində işlər görülmüşdür. Bu çərçivədə Dövlət Gömrük Komitəsinə yazılı sorğu məktubu göndərilmiş və alınmış məlumatlar əsasında ən böyük 40 idxalçıya göndərilmək üçün xəbərdarlıq məktubu və Kinorejissorlar Gildiyası ilə bağlanılması üçün müvafiq müqavilə layihələri hazırlanmışdır.

Kollektiv idarəetmə sahəsində işin təkmilləşdirilməsi və bu sahədə fəaliyyət göstərən təşkilatların fəaliyyətinin səmərəli qurulması istiqamətində tədbirlər davam etdirilmişdir. Hesabat ilində musiqili əsər müəlliflərinin hüquqlarını kollektiv əsaslarla idarə edəcək “Müəllif Hüquqları Uğrunda” İctimai Birliyi Agentlikdə qeydiyyatdan (akkreditasiyadan) keçmişdir.

Bununla yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlar və kollektiv idarəetmə təşkilatlarının, xüsusən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən “Azərbaycan Müəllifləri” İctimai Birliyinin fəaliyyətində yol verilən nöqsanlar, İctimai Birliyin fəaliyyətinin şəffaf və səmərəli olmaması, infrastrukturunun

köhnə və rəqəmsal dövrün tələblərinə cavab verməməsi barədə dəfələrlə Birliyə xəbərdarlıq məktubları göndərilmiş, həmçinin İctimai Birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilmişdir. Buna baxmayaraq, sözügedən İB lazımi nəticə çıxarmamış, akkreditasiya üçün tələb olunan sənədləri bu günə qədər təqdim etməmişdir.

**Müəllif qonorarı.** Kollektiv idarəetmə təşkilatları tərəfindən 2021-ci ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların il ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır.

Kollektiv idarəetmə təşkilatlarının fəaliyyət göstərmədiyi sahələrdə Agentlik bu işi təşkil etmiş, 2021-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmişdir.

2021-ci ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) 19275.24 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Bunlardan Azərbaycan müəlliflərinə 13389.78 manat, xarici müəlliflərə 2488.60 manat, Dövlət varidatı olan əsərlərə görə 1078.83 manat, gəlir vergisi 1934.02 manat, bank xidməti 384.01 manat təşkil edir. Eyni zamanda qonorar hesablanan yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin hesabına daxil olmuş 22256.00 manat müəllif qonorarından köçürmə yolu ilə 11179.43 manat Azərbaycan müəllifllərinə, 751.05 manat xarici müəlliflərə ödənilmiş, qonorardan tutulmuş gəlir vergisi 2126.66 manat vəsait dövlət büdcəsinə, 338.51 manat bank xidməti üçün köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2012-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3188, 2013-cü ildə 3190, 2014-cü ildə 3200, 2015-ci ildə 3231, 2016-cı ildə 3322, 2017-cı ildə 3348, 2018-cı ildə 3380, 2019-cu ildə 3430, 2020-ci ildə 3470, 2021ci ildə isə 3518 nəfər olmuşdur.

2021-ci ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda-Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-tamaşa müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2021-ci ilin statistik göstəriciləri qonorar məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 394 nəfər müəllifin müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 394 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin Visa elektron kartları vasitəsi ilə ödənilməsi təmin edilmişdir.

**12. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2021-ci ildə Əqli Mülkiyyət Agentliyinin Aparatı üzrə tədbirlərinin həyata keçirilməsi ilə bağlı insan resurslarının idarə edilməsi və saxlanılması və tabeliyində olan Respublika Elmi-Texniki

Kitabxanasının saxlanması, fəaliyyətinin təmin edilməsi dövlət büdcəsində nəzərdə tutulan 2660994.00 manat vəsait daxilində aparılmışdır.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 1400171.62 manatı əmək ödənişlərinə (o cümlədən, 1314511.23 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 18240.00 manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 67420.39 manatı müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 310564.86 manatı DSMF-na və işsizlikdən sığorta ayırmalarına, 27714.16 manatı icbari sığorta ayırmalarına, 5061.88 manatı bank xərclərinə, 40137.25 manatı isə Agentliyin Aparatının saxlanması üçün digər işlərin görülməsi üçün xərclənmişdir. Agentliyin Aparatı üzrə cəmi faktiki büdcə xərcləri 1783649.67 manat olmuşdur.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası 100 ştat vahidinə malikdir və Kitabxana "Mədəniyyət haqqında", "Kitabxana işi haqqında" Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncamları rəhbər tutaraq fəaliyyət göstərir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Kitabxananın illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitin 578185.66 manatı əmək haqqı ödənişlərinə (o cümlədən, 544343.3 manatı ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 21750 manatı sair pul ödənişlərinə, 12092.36 manat müavinət və iş qabiliyyətinin müvəqqəti itirilməsinə görə), 125768.37 manatı DSMF-na ayırmalara, 11383.33 manatı icbari tibbi sığortaya, 2902.58 manatı işsizlikdən sığorta haqqına, 3191.12 manatı bank xərclərinə, 155803.94 manatı kitabxananın saxlanması üçün digər işlərin görülməsinə xərclənmişdir. Cəmi faktiki büdcə xərcləri 877235.00 manat olmuşdur.

Hesabat ili ərzində ayrılmış büdcə vəsaitinin cəmi 2660884.67 manatı xərclənmiş, 109.33 manat qalıq məbləğ olmuşdur.

Əldə olunan vəsait hesabına Əqli Mülkiyyət Agentliyinə 2021-ci ildə cəmi daxilolma 3615333.34 manat olmuşdur. O cümlədən: Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nin Maliyyə Xidmətindən Agentliyin hesabına 2021-ci il üzrə 1276404.32 manat (688088.58 chf), Haaqa Sazişinə uyğun olaraq isə 21523.57 manat (11603 chf) vəsait daxil olmuşdur.

Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanlması üçün Avrasiya Patent Təşkilatının Avrasiya Patent Bürosundan Agentliyin hesabına daxil olan vəsaitin məbləği 1328486.13 manat (58338742.56 rubl) təşkil etmişdir.

"İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə" 890717.41 manat, Audiovizual əsərin, fonoqramın, kompyuter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə yapışdırılan nəzarət markasının alınmasına görə ödənilən haqq üzrə - 52815.00 manat, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddəsinə əsasən, ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının, coğrafi göstəricinin, əsərin, əlaqəli hüquqlar obyektinin inteqral sxem topologiyasının və məlumat toplularının qeydə alınması, müvafiq mühafizə sənədlərinin verilməsi və onlarla bağlı digər hüquqi hərəkətlər ilə bağlı hüquqi və fiziki şəxslərə xidmətlərin göstərilməsi üçün ödənilən dövlət rüsumundan Agentliyin hesabına qaytarılan hissəsi (18%) 45386.92 manat təşkil etmişdir.

Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu və xidmət haqları üzrə ödəyicilərin yazılı müraciətləri əsasında 6490.00 manat məbləğin onların hesablarına qaytarılması təmin edilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2021-ci ildə 2524557.96 manat olmuşdur. O cümlədən, Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) 524042.25 manat, ezamiyyə xərclərinə

887.34 manat xərclənmişdir. Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər 141123.82 manat olmuşdur (o cümlədən: mühafizə xərci - 94227.48 manat, enerji xərci -23306.80 manat, təbii qaz haqqı- 12715.54 manat, su haqqı – 4418.00 manat, dezinfeksiya xərcləri 4500.00 manat, lift xidməti 1416.00 manat, kommunal xidmət – 540.00 manat). İl ərzində proqram təminatının yenilənməsinə 42817.00 manat, inventar alınması və xidmət göstərilməsi – 8123.08 manat, digər maşın və avadanlığın alınmasına 46809.12 manat, qəzet və jurnallara abunə yazılmasına 17505.97 manat, dəftərxana xərclərinə 10635.72 manat və təsərrüfat xərclərinə 4509.29 manat vəsait sərf olunmuşdur. Nəqliyyat vasitələri ilə bağlı xərclər 78641.40 manat (avtomobil sığortası, təmiri, dayanacaq xərci, yanacaq haqqı, gömrük rüsumu), kommunal xidmətləri üzrə xərclər (Hökumət evi) 41040.00 manat, cari təmir xərcləri 47018.54 manat, rabitə ilə bağlı xərclər, internet abunəsi 42056.52 manat, poçt və yük daşıma xidməti üzrə xərclər 3142.34 manat, digər xərclər (suvenirlər, kitab alışı və s. xərclər (işçilərin həyat sığortası, tədbirlərin keçirilməsi, dövlət qulluğu üzrə müsabiqə və müsahibə mərhələsi ilə bağlı xərclər, texniki pasport ucun rüsum ödənişi və s.) 49253.95 manat, bank xərcləri 3649.10 manat və s. təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2021-ci il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsait hesabına ödənilmişdir. O cümlədən: Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri 350807.06 manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri 1087951.21 manat, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası üçün saxlanma xərcinə əlavə - 20986.25 manat təşkil etmişdir.